

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 yanvar 2026-cı il, şənbə
№ 014 (7081)
Qiyməti 60 qəpik


# Bakı-Vaşinqton münasibətlərində yeni səhifə



Bax səh. 3

## Davosda 19 görüş...

Bax səh. 2




# Dünyanın inamı, Azərbaycanın məsuliyyəti

Bax səh. 2

## Azərbaycana olan etimad platforması

Dünya İqtisadi Forumunda (DİF) iştirak edən Azərbaycan nümayəndə heyətinin beynəlxalq maliyyə institutları, iri holdinq və investisiya şirkətlərinin rəhbərləri ilə keçirdiyi səmərəli görüşlər qarşılıqlı əməkdaşlıqların artırılması və yeni işgüzar münasibətlərin əsasının qoyulması ilə xarakterizə edilə bilər. Davos platformasında yer alan Azərbaycanın İqtisadiyyat Nazirliyinin, SOCAR-ın, Dövlət Neft Fondunun və digər iqtisadi qurumların rəhbərləri ilə dünyanın tanınmış biznes icmasının nümayəndələri arasında keçirilən görüşlərdə ilk nəzərə çarpan məqam Azərbaycanda yaradılmış əlverişli investisiya mühitinin münbit vəziyyəti ilə bağlı oldu. Qlobal iş dünyasının təmsilçiləri xarici sərmayəçilərin mənafeyinin qorunmasında möhkəm institusional mexanizm və iqtisadi bufer yaratmış Azərbaycan dövlətinin bu iradəsini təqdir edərək sağlam investisiya mühitindən faydalanmaq niyyətlərini bəyan etdilər.

**Kapital və maliyyə sahəsində yeni fürsətlər**

Azərbaycan Prezidentinin Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşü kapital və maliyyə sahəsində yeni fürsətləri səfərbər etmək üçün mühüm iqtisadi hadisə sayıla bilər. Azərbaycan Dövlət Neft Fondu ilə şirkət arasında son dövrlərdə reallaşan əməkdaşlıq istiqamətləri və strateji prioritetlərin əsas xətti də məhz beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyətə uyğun uzunmüddətli investisiya yanaşmaları tətbiq etməkdir. Eləcə də qlobal investisiya fəaliyyəti ilə dünya holdinqlərindən biri olan "Brookfield Asset Management"lə əməkdaşlıq Dövlət Neft Fondunun investisiya siyasətinə uyğun olmaqla, yeni idarətmə bloku formalaşdırmış olur. Belə ki, Davosda DNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolunun imzalanması maliyyə ha-

Bax səh. 4



## Sülh, birlik və təhlükəsizlik mesajı

Bax səh. 6

## Sİ (Süni İntellekt) bizə nə deyir?

Bax səh. 7

## Azərbaycan-NATO tərəfdaşlığı...

### Ölkəmiz Alyansla əlaqələrə böyük önəm verir

Bax səh. 5

## İqtisadi əlaqələr intensivləşir

Cari il fevralın 9-10-da ABŞ Ticarət Palatası, ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyinin nümayəndələri birlikdə Azərbaycana ilk dəfə ikitərəfli biznes missiyasının təşkili nəzərdə tutulur. İki günlük səfər çərçivəsində yüksək səviyyəli nümayəndə heyəti ABŞ şirkətlərinə Azərbaycan dövlət orqanları, dövlət şirkətləri və özəl sektorun aparıcı oyunçuları ilə birbaşa əlaqə qurmaq imkanı yaradacaq.

Əsas diqqət energetika və rəqəmsal transformasiya, müdafiə və nəqliyyat, kənd təsərrüfatı və səhiyyə, maliyyə və investisiyalar üzərində cəmləşəcək. Missiyanın proqramında Prezident Administrasiyası və Nazirlər Kabineti, müvafiq nazirliklər, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Dövlət Neft Fondu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), "PAŞA Holdinq" MMC, Azərbaycan Amerika Ticarət Palatası ("AmCham"), həmçinin digər dövlət və özəl qurumların nümayəndələri ilə görüşlər nəzərdə tutulub.

**Strateji Tərəfdaşlıq Xartiyası iqtisadi mübadilələri artırmaqdadır**

Missiya Azərbaycan və ABŞ arasında iqtisadi münasibətlərin çoxşaxəli inkişafı üçün yeni dövrün başlandığına işarə edir. Tərəflər arasında münasibətlərin yeni gündəliyini müəyyən edən Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandum iqtisadi-ticari-enerji sahəsində çoxistiqamətli konsepsiya olmaqla, əməkdaşlığın inkişafına təkan verməkdədir. Son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcıl xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasını təmin etməkdədir.

Qeyd edək ki, ABŞ-ın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili, xanım Emi Karlon da son

Bax səh. 3



## Qrenlandiya ilə bağlı yeni razılaşma əldə olunub

Bax səh. 6



## Türk dövlətləri arasında inteqrasiya güclənir

Bax səh. 4

# Davosda 19 görüş...

Davos Ümumdünya İqtisadi Forumunun daha bir İllik toplantısı arxada qaldı. Prezident İlham Əliyev İllik toplantısı çərçivəsində keçirdiyi görüşlərlə bağlı sosial şəbəkə hesabında paylaşım edib. Paylaşımda "Prezident İlham Əliyevin Ümumdünya İqtisadi Forumunun İllik toplantısı çərçivəsində görüşləri. Davos 19-22 yanvar 2026-cı il" sözləri yer alıb.




Bu dəfə də Prezident İlham Əliyevin dünyanın böyük maraq göstərdiyi toplantı çərçivəsində iş rejimi kifayət qədər gərgin olub. O cümlədən Azərbaycan Prezidenti Davosda çoxsaylı görüşlərə qatılıb. Bu görüşlərdə regional məsələlər, beynəlxalq gündəliklə bağlı aktual müzakirələr aparılıb və dövlətimizin başçısı Azərbaycan həqiqətlərini, ölkəmizin hər cəhətdən müsbət reallıqlarını və indiki strateji mərhələ üçün müəyyənləşdirdiyi hədəfləri beynəlxalq birliyin diqqətinə çatdırıb.

**Bütün dünyada təqdirlə qarşılanan siyasi kurs**

Prezident İlham Əliyevin Davosda ayrı-ayrı ölkələrin dövlət və hökumət başçıları ilə görüşlərini bir sıra baxış bucaqlarından dəyərləndirmək mümkündür. Dövlətimizin başçısının ABŞ Prezidenti Donald Tramp, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani, Çex Respublikasının Baş naziri Andrey Babiş, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos ilə görüşləri Azərbaycanın xarici siyasət kursunun səmərəliliyinin əyani təsdiqidir. Azərbaycan Prezidenti ilə görüşlərə qatılan rəsmilər müxtəlif coğrafiyalarda yerləşən ölkələri təmsil edirlər. Lakin görüşlərdə aparılan müzakirələrin məzmunundan, ifadə olunan fikirlərdən aydın şəkildə görünür ki, liderlər istisnasız olaraq respublikamıza, Prezident İlham Əliyevə böyük rəğbət bəsləyirlər və Azərbaycanla əməkdaşlığı bundan sonra daha da dərinləşdirməyə maraq göstərirlər.

Bəhs olunan görüşlərdə Azərbaycana belə böyük hörmətlə yanaşılması isə heç də təsadüfi deyil. Bu, ilk növbədə, ölkəmizin apardığı siyasətin mahiyyəti ilə bağlıdır. Məlumdur ki, hazırda beynəlxalq hüquq böhran dövrünü yaşayır. Bir sıra hallarda ikili standartlar önə çəkilir. Azərbaycan da zamanında selektiv yanaşmalardan əziyyət çəkən ölkə olsa da, xarici siyasətində bir qayda olaraq xoş mərama və ədalət prinsipinə əsaslanır. Ölkəmiz, şəxsən Prezident İlham Əliyev daim o mövqedən çıxış edir ki, dövlətlərin bir-biri və beynəlxalq təşkilatlarla münasibətləri paritet əsaslarla, qarşılıqlı maraqlara uyğun şəkildə qurulmalıdır. Yəni münasibətlərdə tərəflərdən birinin hegemonluğu olmamalıdır, bütün tərəflərin maraqları nəzərə alınmalıdır.




Eyni zamanda, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq ölkəmizin xarici siyasət kursunun prioritet istiqamətlərindən birini təşlkil edir. Elə ölkələr var ki, beynəlxalq təşkilatlarla münasibətlərdə yalnız umacaqlarını gündəmə gətirirlər. Azərbaycan belə dövlətlərdən deyil. Ölkəmiz öz imkanlarını təqdim etməklə ayrı-ayrı beynəlxalq təşkilatların fəaliyyətlərini dəstəkləyir və onların layihələrində yaxından iştirak edir. Belə xoş mərama, beynəlxalq prinsiplərə və əlbəttə ki, milli maraqlara əsaslanan müstəqil siyasi kurs bütün dünyada təqdirlə qarşılanır.

**Xarici investorlar üçün cəlbedici məkan**

Prezident İlham Əliyevin Ümumdünya İqtisadi Forumunun İllik toplantısında iştirakı həmçinin Onun bir sıra biznes dairələrinin, dünyada tanınan şirkətlərin rəhbər şəxsləri ilə keçirdiyi görüşlərlə yadda qalıb. Bu sırada dövlətimizin başçısının Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves, "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm, dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim, "Carlsberg Group" şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen, dünyanın aparıcı qlobal maliyyə institutlarından biri olan Amerika Birləşmiş Ştatlarının "J.P. Morgan" şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon və digərləri ilə görüşlərini qeyd edə bilərik. Bəhs olunan şirkətlərin bir çoxu ilə Azərbaycanı müxtəlif istiqamətlərdə qurulan əməkdaşlıq əlaqələri bağlayır.

Dinamik inkişaf göstəricilərinə malik olan Azərbaycan xarici investorlar üçün cəlbedici məkandır. İndiyədək xarici investorlar, o cümlədən də beynəlxalq maliyyə qurumları ölkəmizdə enerji sektoruna, infrastruktur quruculuğuna və digər sahələrə böyük həcmlərdə investisiyalar yönəldiblər. Hazırda milli iqtisadiyyatda şaxələndirmə siyasətinin prioritetliyini bəyan edən respublikamızın hədəfləri kifayət qədər böyükdür. Enerji keçidi Azərbaycanın iqtisadi siyasətinin yeni və perspektivli istiqamətlərindən biri kimi baxılır. Ölkəmiz bərpaolunan enerji mənbələri ilə zəngin bir diyardır. Bundan başqa, indiki strateji mərhələdə respublikamız qlobal çağırışları nəzərə almaqla innovativ texnoloji inkişafı hədəfləyib. Eyni zamanda, Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə böyük həcmli quruculuq, bərpa layihələri həyata keçirilir. Xarici investorlar bütün bu kimi istiqamətlərdə Azərbaycanla əməkdaşlığa qoşula bilərlər və artıq bu proses başlayıb. Görüşlərdə Azərbaycanın etibarlı tərəfdaş olduğuna, ölkədə iqtisadi fəaliyyət üçün bütün şərtlərin təmin edildiyinə xüsusi diqqət çəkilib.

*Mübariz FEYİZLİ*












# Dünyanın inamı, Azərbaycanın məsuliyyəti

Hazırda dünyanın ayrı-ayrı regionlarında ciddi kataklizmlərin baş verməsinə baxmayaraq, Azərbaycan ölkələr, xalqlar arasında etimad quruculuğunu hədəfləyən siyasət həyata keçirir. Respublikamızın ardıcıl olaraq mötəbər beynəlxalq təşkilatların mühüm tədbirlərinə ev sahibliyi etməsi də bu siyasətin təzahürüdür. Dünya birliyi Azərbaycana inanır, respublikamız isə məsuliyyətli dövlət olaraq öz imkanlarını təqdim etməklə beynəlxalq ictimaiyyətin etimadını yüksək səviyyədə doğruldur. Bəhs olunan tədbirlərdə qlobal miqyasda yaranan çağırışlarla bağlı aktual müzakirələr aparılır və substantiv nəticələrə nail olunur. Prezident İlham Əliyev bugünlərdə Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə sualları cavablandırarkən ölkəmizin COP29 konfransına uğurla ev sahibliyi etməsinə xüsusi diqqət çəkib və Azərbaycanın dialoq, əməkdaşlıq məkanına çevrilməsindən məmnunluğunu bildirib.

## Azərbaycanın həssas yanaşması və COP29-un ən böyük dərsi

COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi dünyanın ölkəmizə inamının daha bir ifadəsi idi. Azərbaycanın BMT-nin ən böyük tədbirlərindən hesab olunan COP29-a hazırlaşması üçün 1 ildən də az vaxtı var idi. Respublikamız dünya birliyinin inamını böyük məsuliyyət kimi qəbul edərək vaxt itirmədən hazırlıqlara başladı. Lakin burada da bədxahlar tapıldı. Belə ki, ölkəmizin uğurlarını həzm edə bilməyən dairələr özlərinin çirkin ənənələrinə sadiq qalmaqla COP29-u hədəfə aldılar. Bədxahların əsaslandırmaları da bu idi ki, neft ölkəsi iqlim konfransına ev sahibliyi edə bilməz. Ancaq Azərbaycan belə saxta əsaslandırmaları alt-üst etməyi bacardı. Prezident İlham Əliyev bildirib ki, "ilk dərs o oldu ki, müxtəlif dairələrin bu tədbirlərə qarşı çıxmasına baxmayaraq, siz ölkə üçün doğru olanı etməlisiniz. İstər Avroviziya, istər COP-la bağlı biz əsassız tənqidlərlə üzləşdik. Xüsusilə COP-la bağlı bizi günahlandırdılar ki, neft istehsal edən ölkəyik, neft istehsal edən ölkə necə COP-a ev sahibliyi edə bilər. Baxmayaraq ki, Azərbaycandan əvvəl və sonra Azərbaycandan xeyli çox neft istehsal edən ölkələr olub. Lakin sual bizimlə bağlı idi və mən söylədim ki, neftə sahib olmaq bizim günahımız deyil. Biz buna görə günahlandırılmamalıyıq. Bizi neft sərvətimizi necə idarə etməyimiz, onu cəmiyyətdə ədalətli şəkildə necə paylaşdırdığımızla bağlı qiymətləndirmək lazımdır. Beləliklə, çıxardığımız dərslərdən biri bu idi".

COP29-a ev sahibliyinin məsuliyyətini öz üzərinə götürməsi ilk növbədə Azərbaycanın dünyada aktuallığı getdikcə artan iqlim məsələlərinə həssas yanaşması ilə bağlı idi. Güclü sənaye inkişafı və qlobal istiləşmə nəticəsində yaranan iqlim dəyişikliyinin təzahürləri və fəsadları getdikcə daha da artır. İqlim dəyişikliyinin mənfi təzahürlərindən və fəsadlarından hansısa bir ölkənin sığortalandığını söyləmək mümkün deyil. İndiki dövrdə iqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. İqlim dəyişikliyindən təsirlənən digər ölkələrlə müqayisədə okeanda dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətlərində vəziyyət daha ciddidir. Okeanın ortasında bol su heç də xoşbəxtlik anlamında qəbul olunmur. Bu dövlətlər yüksək gəlirli ölkələr sayılsalar da, onlar tez-tez təbii fəlakətlərlə üzləşirlər.

Bütövlükdə, təhdidlərin miqyası çox böyükdür. İqlim dəyişikliyinin təsirləri həyatın bütün sahələrində özünü büruzə verir. Statistikaya əsasən planetimizdə son yüz il ərzində havanın illik temperaturu 1 dərəcə artıb. Ən dəhşətlisi odur ki, temperaturun 0,75 dərəcə artımı son onilliyə təsadüf edir. Yer üzündə həyatın tam məhv olması üçün isə temperaturun 10-15 dərəcə artması kifayətdir. Xəbərdarlıq edilir ki, əgər temperaturun artması belə davam edərsə, onda 130-200 ildən sonra Yerdə həyat mövcud olmayacaq.

Azərbaycan da iqlim dəyişikliyindən təsirlənən ölkələr sırasında yer alır. Ölkəmizdə iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən aydın şəkildə görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir.

Azərbaycan yaranan qlobal təhdidlərə qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsinin zəruriliyi mövqeyindən çıxış edir. Məhz dövlətlərin milli səviyyələrdə gördükləri tədbirlərlə və fəaliyyətləri uzlaşdırmaqla qlobal təhdidə qarşı mübarizənin səmərəliliyini artırmaq mümkündür. BMT-nin bəyan etdiyi Davamlı İnkişaf Məqsədlərinə qoşulan Azərbaycan milli səviyyədə özünün ekoloji siyasətinin konkret hədəflərini müəyyənləşdirib. COP29 tədbirinə ev sahibliyi etməyin məsuliyyətini öz üzərinə götürməklə Azərbaycan həssas yanaşmasını bir daha nümayiş etdirib.




## Ən yaxşı iqlim konfranslarından biri

Bədxahların əsassız iddialarına, haqsız tənqidlərinə rəğmən, Azərbaycan COP29-u yüksək səviyyədə təşkil etməyə və yaxşı nəticələr qazanmağa nail oldu. Təsadüfi deyildir ki, Davosda bəhs olunan tədbirə qatılan biznes dairələrinin nümayəndələri Bakının ev sahibliyi ilə baş tutan COP29-u fantastik iqlim konfransı kimi dəyərləndiriblər.

Uğurla keçən tədbir ölkəmizin liderlik keyfiyyətlərini bir daha dünyanın diqqətinə çatdırdı. Tədbirdə iştirak etmək üçün 76 mindən çox iştirakçı qeydiyyatdan keçib, həmçinin 80 dövlət və hökumət başçısı Bakıya təşrif gətirib. İştirakçıların böyük hissəsi, yəni 57 min 160 nəfər əcnəbilər olublar. COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti təşkil olunub.

Bakıda baş tutan iqlim konfransında bir sıra uğurlu nəticələr əldə olunub. Bu sırada aşağıdakıları xüsusi olaraq qeyd etmək mümkündür:

- Hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunması. Xatırladaq ki, bu göstərici əvvəllər 100 milyard dollar olub.

- 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq. Digər tərəfdən, 6-cı maddə üzrə əməkdaşlıq emissiyaların azaldılmasını tənzimləyə biləcək.

- 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur.

- Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsinin yaradılması. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirə olunmasını təmin edəcək.

- COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddət idi ki, davam edirdi və COP29 Sədrliyi nəticəsində sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu.

Beləliklə, deyə bilərik ki, Azərbaycan COP29-un təcrübəsi və mirası ilə gələcək iqlim konfransları üçün nümunəvi presedent yaradıb. COP29-un "Bakı sıçrayışı" adlandırılması burada bir çox hədəflərə çatılması ilə bağlıdır. "Biz yaxşı tədbir keçirmək əzmində idik və bu, təşkilatçılıq baxımından, daha vacibi isə nəticələr baxımından həqiqətən də yaxşı tədbir oldu. Biz 10 il ərzində əldə edilməsi mümkün olmayana nail olduq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Bakı-Vaşinqton münasibətlərində yeni səhifə

Son bir ildə Azərbaycan Prezidenti İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın bir-birlərinə rəğbətlə yanaşmaları və hörmət göstərmələri açıq şəkildə müşahidə edilir. Deyə bilərik ki, onların arasında təmaslar müntəzəm hal alıb. Liderlər növbəti dəfə bu günlərdə Davosda görüşüblər.





**Liderlər bir-birinə inanır və səmimi rəğbət bəsləyirlər**

Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində baş tutan görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Ənənəvi olaraq beynəlxalq sülh və təhlükəsizliyin gücləndirilməsi, terrorizmə və onun müxtəlif təzahürlərinə qarşı mübarizə, enerji təhlükəsizliyi və bir sıra digər mühüm sahələr üzrə fəal və səmərəli əməkdaşlıq Azərbaycan-ABŞ tərəfdaşlığının səciyyəvi cəhətlərini təşkil edib. Təəssüf ki, müəyyən dövrlərdə bu zəncirdə qırılmalar da müşahidə edilib. Xatırlayaq ki, keçmiş Bayden administrasiyası dönəmində məhz qarşı tərəfin ədalətsiz və qərəzli yanaşmaları səbəbindən ABŞ - Azərbaycan münasibətlərində ciddi çatlar yaranmışdı.

Ağ Evdə Bayden administrasiyası əvəzləndikdən sonra isə vəziyyət dəyişib və münasibətlərdə yeni səhifə açılıb. Rəsmi Bakı Vaşinqtonla əlaqələri qarşılıqlı maraqlar əsasında inkişaf etdirməyə səy göstərir. Ölkəmiz ABŞ ilə dostluq münasibətlərinə və tərəfdaşlığa xüsusi əhəmiyyət verir ki, bunu Prezident İlham Əliyev həm Donald Trampla görüşlərində, həm də ona ünvanladığı məktublarında xüsusi olaraq vurğulayıb. Oxşar fikirləri həmçinin Ağ Evin yeni sahibi də bir neçə dəfə ifadə edib. Beləliklə, biz görürük ki, hər iki tərəf əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafeyinə uyğun olaraq inkişafına güclü siyasi iradə göstərir.

Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, liderlər bir-birinə inanır və səmimi münasibət bəsləyirlər. D.Trampın özünün sosial şəbəkə hesabında Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından bir parçanı paylaşması, dövlətimizin başçısını "böyük lider" adlandırması, həmçinin Onu Yaxın Şərq üzrə nizamlama proseslərinə cəlb etməsi bunun əyani təsdiqidir. Oxşar münasibəti həmçinin Azərbaycan Prezidenti də sərgiləyir. Qeyd edək ki, Prezident İlham Əliyev bəhs olunan Şuşa forumunda dünyada qalıcı sülhə çağırışlar edib və D.Trampı "müharibə başlamayan ABŞ Prezidenti" kimi səciyyələndirib. Məlumdur ki, ABŞ prezidentlərinin əksəriyyətinin idarəçiliyi dönəmində bu ölkə dünyanın ayrı-ayrı regionlarında qanlı müharibələrə cəlb olunub. D.Tramp isə son bir illik prezidentliyi dönəmində özünün də vurğuladığı kimi, 8 münaqişləyə son qoyub.



Son bir ildə Azərbaycanla ABŞ arasındakı münasibətlərdə yeni səhifə açıldığını təsdiqləyən daha iki faktı xüsusi qeyd edə bilərik. Bunlardan biri ötən il avqustun 8-də Ağ Evdə "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanmasıdır. Bu sənədin imzalanması və artıq tərəflərin müvafiq proseslərə start vermələri bir daha təsdiqləyir ki, hər iki ölkə qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməkdə maraqlıdır.

Qeyd etdiyimiz ikinci mühüm məqam isə "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin fəaliyyətinin D.Tramp tərəfindən dayandırılmasıdır. Hazırda hər iki tərəf bu bədnam düzəlişin tamamilə ləğv edilməsi istiqamətində fəal iş aparır.

**Əməkdaşlığın yeni inkişaf dövrü**

Baş tutan görüşdə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulanıb. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın respublikamıza qarşı başladığı işğalçılıq müharibəsi ciddi fəsadlar yaratmaqla təxminən üç onillik ərzində davam edib. Qazandığı parlaq qələbələrlə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən qalib Azərbaycan müharibə başa çatdıqdan dərhal sonra sülh təşəbbüsündən çıxış etdi. Lakin Ermənistandakı ayrı-ayrı qüvvələrin və onları dəstəkləyən bəzi xarici güclərin manipulyativ davranışlarına görə sülh prosesi uzandı. Münaqişə vəziyyətinə məhz D.Trampın səyləri sayəsində ötən il avqustun 8-də Ağ Evdə, dünyanın bir nömrəli ofisində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirlərinin yekun sülh sazişini paraflamaları ilə son qoyulub.

Regionda sülh dövrünün başladığına bəhs olunan görüşdə də diqqət çəkilib. Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxunub. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirib. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğulayıb.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd edib.

**Ölkəmizin qlobal sülhün təşviqində rolu təsdiqlənir**

Azərbaycanın məqsədyönlü siyasəti yalnız Cənubi Qafqaz coğrafiyasında deyil, bütün dünyada sülhün bərqərar edilməsinə yönəlib. Ölkəmizin bu siyasəti D.Trampın sülh çağırışları ilə üst-üstə düşür.

Davosda baş tutan görüşdə söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunulub, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edilib. Sülh Şurasına təsisçi üzv dövlət qismində respublikamızın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirilib.

*Mübariz ABDULLAYEV*

# İqtisadi əlaqələr intensivləşir

## İnvestisiya tərəfdaşlığının ikitərəfli biznes missiyası hazırlayır

Cari il fevralın 9-10-da ABŞ Ticarət Palatası, ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyinin nümayəndələri birlikdə Azərbaycana ilk dəfə ikitərəfli biznes missiyasının təşkili nəzərdə tutulur. İki günlük səfər çərçivəsində yüksək səviyyəli nümayəndə heyəti ABŞ şirkətlərinə Azərbaycan dövlət orqanları, dövlət şirkətləri və özəl sektorun aparıcı oyunçuları ilə birbaşa əlaqə qurmaq imkanı yaradacaq.









Əsas diqqət energetika və rəqəmsal transformasiya, müdafiə və nəqliyyat, kənd təsərrüfatı və səhiyyə, maliyyə və investisiyalar üzərində cəmləşəcək. Missiyanın proqramında Prezident Administrasiyası və Nazirlər Kabineti, müvafiq nazirliklər, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Dövlət Neft Fondu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), "PAŞA Holdinq" MMC, Azərbaycan Amerika Ticarət Palatası ("AmCham"), həmçinin digər dövlət və özəl qurumların nümayəndələri ilə görüşlər nəzərdə tutulub.

**Strateji Tərəfdaşlıq Xartiyası iqtisadi mübadilələri artırmaqdadır**

Missiya Azərbaycan və ABŞ arasında iqtisadi münasibətlərin çoxşaxəli inkişafı üçün yeni dövrün başlandığına işarə edir. Tərəflər arasında münasibətlərin yeni gündəliyini müəyyən edən Strateji Tərəfdaşlıq Xartiyası üzrə Memorandum iqtisadi-ticari-enerji sahəsində çoxistiqamətli konsepsiya olmaqla, əməkdaşlığın inkişafına təkan verməkdədir. Son aylarda iki dövlət arasında iqtisadi və siyasi bloklarda ardıcıl xarakter alan sıx təmasların artması və qətiyyətli iradənin ortaya qoyulması Bakı-Vaşinqton münasibətlərinin tamamilə yeni dövrə daxil olmasını təmin etməkdədir.

Qeyd edək ki, ABŞ-ın ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili, xanım Emi Karlon da son aylarda ABŞ-Azərbaycan münasibətlərinin sürətli inkişafının müşahidə edildiyini vurğulayaraq bu dinamikanın irəliləməsində ötən ilin avqustunda təsis edilmiş strateji əməkdaşlıq üzrə sənədin əhəmiyyətinə toxunub. İki ölkə arasında imzalanmış Anlaşma Memorandumu ABŞ və Azərbaycan arasında gələcək əməkdaşlıq üçün çərçivəni müəyyən etməklə biznes sektorları üçün də dərin münasibətlər qurub.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Davos Forumu çərçivəsində dünyanın iri korporasiya rəhbərləri ilə görüşlərində də ABŞ-ın nüfuzlu şirkət və maliyyə holdinqləri xüsusi yer tutub. Dünyanın nəhəng investisiya və maliyyə şirkətlərindən biri olan "J.P. Morgan" şirkətinin rəhbər heyəti ilə görüşdə bankçılıq, investisiya və aktivlərin idarə olunması sahələrində yeni əməkdaşlıq imkanları müzakirə olunub. Eləcə də ABŞ-ın digər investisiya nəhəngi - "Dell Technologies" şirkəti ilə Azərbaycan arasında "rəqəmsal iqtisadiyyat" quruculuğunda birgə fəaliyyət istiqamətləri nəzərdən keçirilib.

**İkinci neft bumu və enerji diplomatiyasının yeni səhifəsi**

Şərq-Qərb enerji dəhlizlərinin formalaşmasına hər zaman davamlı dəstək verən Amerika BTC, TANAP, TAP layihələrin sülh və rifah, əsil enerji həmrəyliyi dəhlizləri olmasını bəyan edərək Azərbaycanın enerji siyasətini alqışlayıb. ABŞ-ın nəhəng enerji korporasiyası - "ExxonMobil" hazırda Azərbaycanda quruda yerləşən neft və qaz ehtiyatlarının potensial inkişafını qiymətləndirir. Bu isə yeni neft bumunun başlanması və ABŞ-Azərbaycan enerji tərəfdaşlığının yeni mərhələyə daxil olması deməkdir. Bu əməkdaşlıq digər ABŞ şirkətlərinin də ölkəmizin enerji sektoruna gəlişinə dərin zəmin yaradacaq, ələlxüsus da "yaşıl enerji" sahəsində nəzərdə tutulan gündəliyi inkişaf etdirəcək. Bu, eyni zamanda, Azərbaycanın "yaşıl enerji keçidi" layihələrində, xüsusilə külək və Günəş enerjisi sahəsində Amerika şirkətlərinin iştirakının da genişləndirilməsini təşviq edir.

"ExxonMobil" və yaxın partnyorları, habelə Azərbaycanın qeyri-enerji sektorlarında da cığır açır və bu, biznes qurmaq istəyən bütün ABŞ şirkətlərini tam şəkildə birgə biznes alyansının formalaşmasına töhfə verəcək. Eləcə də daşınmaz əmlak, maliyyə, turizm və kənd təsərrüfatını əməkdaşlıq üçün potensiallı sahələrə hüquqi-iqtisadi baza yaradır. Amerika IT şirkətlərinin və vençur investorlarının bu sahəyə cəlb edilməsi də nəzərdə tutulur. ABŞ bu sahədə dünyanın ən qabaqcıl texnologiyalarına malik olduğuna görə, biz həmin texnologiyaları ölkəmizə gətirmək niyyətindəyik.

**Orta Dəhlizdə yeni kommunikasiyalar quruculuğu başlayır**

Orta Dəhliz çərçivəsində ABŞ ilə Azərbaycan arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın perspektivləri də çox ümidvericidir. TRIPP layihəsi burada açar rolunu oynamaqla digər kommunikasiyaların vəhdəti üçün təşəbbüslər gerçəkləşdirəcək.

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi təşəbbüskarlıq göstərir, dəstək verir. Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir texnologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır.

**Azad ərazilərdə Amerika sərmayəsi üçün imkanlar böyükdür**

Amerika biznesi Azərbaycan Respublikasında azad edilmiş ərazilərin bərpasında və inkişafında da əhəmiyyətli dərəcədə rol oynayacaq. Hazırda bu ölkənin qeyri-hökumət təşkilatı Marşal Fondu Azərbaycanın ANAMA təşkilatına ərazilərin minalardan təmizlənməsi işinə dəstək verir. ABŞ nümayəndə heyəti və diplomatik korpusun üzvləri Füzuli, Cəbrayıl, Zəngilan və bir sıra digər yerlərdə olublar. Səfər zamanı hava limanlarını, dəmir yollarında və avtomobil magistrallarında həyata keçirilmiş işlərlə yaxından tanış olan amerikalılar öz qabaqcıl təcrübələrini bu ərazilərdə də bölüşməyə razıdır. ABŞ şirkətləri mühəndislik və infrastruktur da daxil olmaqla, bütün sahələr üzrə texniki təcrübəyə malik olan nüfuzlu investisiya qruplarını bu bölgədə iqtisadi əməkdaşlıq zəncirinə qoşulacaqlarını istisna etmir. Bütün bunlar Amerika şirkətlərinin ərazilərdəki aqrar, aqrar-sənaye, enerji layihələrində təmsil olunmasına stimul verə bilər.

ABŞ-ın Ticarət Departamenti katibinin müavinləri Vilyam Kimmitt və Ceffri Kessler də Azərbaycanda əlverişli sərmayə mühitinin mövcudluğuna toxunaraq bu amilin ABŞ investorları üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıblar.

Beləliklə, çoxistiqamətli əməkdaşlıq platformaları Azərbaycan iqtisadiyyatına ABŞ şirkətlərinin yeni axınlarına və ticarət-iqtisadi əlaqələrin yüksək səviyyəyə yüksəlməsini təmin edəcək.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycana olan etimad platforması










## Davosda qlobal investorlarla keçirilən görüşlər ölkəmizə xarici sərmayələrin cəlb edilməsində yeni imkanlar açır

Dünya İqtisadi Forumunda (DİF) iştirak edən Azərbaycan nümayəndə heyətinin beynəlxalq maliyyə institutları, iri holdinq və investisiya şirkətlərinin rəhbərləri ilə keçirdiyi səmərəli görüşlər qarşılıqlı əməkdaşlıqların artırılması və yeni işgüzar münasibətlərin əsasının qoyulması ilə xarakterizə edilə bilər. Davos platformasında yer alan Azərbaycanın İqtisadiyyat Nazirliyinin, SOCAR-ın, Dövlət Neft Fondunun və digər iqtisadi qurumların rəhbərləri ilə dünyanın tanınmış biznes icmasının nümayəndələri arasında keçirilən görüşlərdə ilk nəzərə çarpan məqam Azərbaycanda yaradılmış əlverişli investisiya mühitinin münbit vəziyyəti ilə bağlı oldu. Qlobal iş dünyasının təmsilçiləri xarici sərmayəçilərin mənafeyinin qorunmasında möhkəm institusional mexanizm və iqtisadi bufer yaratmış Azərbaycan dövlətinin bu iradəsini təqdir edərək sağlam investisiya mühitindən faydalanmaq niyyətlərini bəyan etdilər.

**Kapital və maliyyə sahəsində yeni fürsətlər**

Azərbaycan Prezidentinin Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşü kapital və maliyyə sahəsində yeni fürsətlər səfərbər etmək üçün mühüm iqtisadi hadisə sayıla bilər. Azərbaycan Dövlət Neft Fondu ilə şirkət arasında son dövrlərdə reallaşan əməkdaşlıq istiqamətləri və strateji prioritetlərin əsas xətti də məhz beynəlxalq maliyyə bazarlarında mövcud vəziyyətə uyğun uzunmüddətli investisiya yanaşmaları tətbiq etməkdir. Eləcə də qlobal investisiya fəaliyyəti ilə dünya holdinqlərindən biri olan "Brookfield Asset Management"lə əməkdaşlıq Dövlət Neft Fondunun investisiya siyasətinə uyğun olmaqla, yeni idarətmə bloku formalaşdırmış olur. Belə ki, Davosda DNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolunun imzalanması maliyyə bazarlarına 3-4 il müddətində 1,4 milyard dollar kapital qoyuluşunu təşviq edəcək.

Həmçinin, qlobal aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüş Dövlət Neft Fondu üçün yeni əməkdaşlıq kursunun müəyyən edilməsi baxımından əhəmiyyətli hesab edilə bilər. Dövlət Neft Fondu ilə "Global Infrastructure Partners" arasında uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun imzalanması isə birgə investisiya təsisatının qurulmasını təmin edən uğur deməkdir. Bu qurumun birgə maliyyə tərəfdaşlığı çərçivəsində 1,5 milyard dollar kapital qoyuluşu təmin etməsi planlaşdırılır.

**"Yaşıl texnologiya" şirkətləri ilə əməkdaşlıq**

Azərbaycan müasir enerji gündəliyinin əsas istiqaməti kimi "yaşıl enerji"yə keçidi prioritet elan edib və bu sahədə xarici investorlarla fəal əməkdaşlıqlar qurulmaqdadır. Danimarkanın tanınmış bərpaolunan enerji holdinqlərindən biri sayılan "Vestas Wind Systems A/S" dünyada "yaşıl enerji" sektorunun əsas infrastruktur və texnologiyalar təchizatçılarındandır. Şirkət Avropa və Asiya bazarlarında "yaşıl enerji"nin emalı və ötürülməsi sistemlərinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan "Vestas" ilə Azərbaycan arasında fəal dialoqun qurulması külək və günəş enerjisi sahəsində birgə layihələrin icrası üçün dərin zəmin yaradır.

Respublikamız qlobal logistika mərkəzinin əsas körpülərindən biri kimi həm də qlobal nəqliyyat holdinqləri ilə sıx əməkdaşlıq edir. Davosda dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun rəhbər heyəti ilə görüş bu baxımdan əhəmiyyət kəsb edir. Bu şirkətin Azərbaycanda müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində icra edilən layihələrdə təmsil olunması istisna deyil.

Prezident İlham Əliyevin "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşü enerji sektoruna yeni sərmayə qoyuluşları baxımından əhəmiyyət daşıyır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm təchizatçı kimi xarici enerji şirkətləri ilə yeni mübadilələr qurur. Bu kontekstdə dünyanın aparıcı neft ticarəti şirkətlərindən biri olan "Vitol" qrupu ilə tərəfdaşlıq qlobal treydinq ticarətində ölkəmizə faydalar gətirə bilər.

Dünya biznes ailəsində kifayət qədər şöhrətli və sanballı təsisatlardan biri olan "Carlsberg Group" şirkətinin də Azərbaycana marağı böyükdür. Bir neçə illərdir ki, fəaliyyət göstərən danimarkalı biznes qrupu ölkəmizdə təmin edilmiş sağlam sərmayə iqlimini nəzərə alaraq Azərbaycanda daha geniş imkanlar qurmaq niyyətindədir.

**"J.P. Morgan" - ABŞ-ın Azərbaycandakı yaxın tərəfdaşı**

Dünyanın nəhəng investisiya və maliyyə şirkətlərindən biri olan ABŞ-ın "J.P. Morgan" şirkəti Azərbaycanı özü üçün yaxın tərəfdaş hesab edir. Ötən illərdə tərəflər birgə uğurlu maliyyə nailiyyətləri əldə edib. Şirkətin baş icraçı direktoru Ceymi Daymonun vurğuladığı kimi, Dövlət Neft Fondu ilə əməkdaşlıq DNF-nin beynəlxalq maliyyə bazarlarında etibarlı tərəfdaş mövqeyini yüksəldib. Həmçinin, SOCAR-la çoxillik əməkdaşlıq "J.P. Morgan"la qarşılıqlı etimad mühitini möhkəmləndirib. Aktivlərin həcmi 4 trilyon dollardan çox olan "J.P. Morgan" şirkəti Azərbaycanda bankçılıq, investisiya və aktivlərin idarə olunması sahələrində fəaliyyət göstərməyə müsbət yanaşır.

ABŞ-ın digər investisiya nəhəngi - "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüş də Azərbaycanda "rəqəmsal iqtisadiyyat" quruculuğuna töhfəverici amillərdən biri hesab edilə bilər. İT texnologiyaları üzrə nüfuzlu şirkətlərdən biri olan "Dell Technologies" Azərbaycanda fəaliyyətini genişləndirmək niyyətindədir. Ölkəmizdə yeni data infrastrukturunun qurulması və süni intellekt yaradıcılığında şirkətin dəstək göstərəcəyi nəzərdə tutulur.

**"Avrasiyanın iqtisadi özünəməxsusluğu"nda Azərbaycan modeli**

Davos Forumu çərçivəsində təşkil olunan "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclasda Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan mövzu rəngarəngliyi baxımından faydalı sayıla bilər. Prezident İlham Əliyevin iştirak etdiyi . iclasda müzakirələrin əsas xətti Qafqaz ilə Mərkəzi Asiyada yaranmış yeni geoiqtisadi reallıqlar fonunda dizayn edilən enerji-nəqliyyat-logistika qovşaqlarının inkişaf istiqamətlərinə fokuslanmışdı. Beynəlxalq biznes icmasına Azərbaycanın Cənubi Qafqazda qurduğu iqtisadi-ticari bağlantı proqramlarının əhəmiyyəti çatdırıldı. Azərbaycanın dövlət başçısı bölgədə Ermənistanı da cəlb etdiyi yeni iqtisadi quruculuq imkanlarına diqqət çəkərək əməkdaşlığa və ixrac əməliyyatlarına start verildiyini diqqətə çatdırdı. Bəyan olunduğu kimi Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb. Həmçinin, ABŞ-ın himayəsi altında həyata keçirilən TRIPP layihəsi isə işlərin tamamlanmasından sonra daşınmalar Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana və Ermənistana, Azərbaycanın bir hissəsi olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanacaq. Nəticədə müasir trans-nəqliyyat dəhlizi formalaşacaq.

Eləcə də görüşlərdə ticarət və sərmayələr sahəsində fəaliyyətin prioritet istiqamətləri nəzərdən keçirilib. İqtisadi diversifikasiya prosesinə geosiyasi təsirlər, innovasiya və səmərəlilik, idarəçilik və inkişaf kimi mövzular müzakirə olunub. Azərbaycanın qlobal bazarlara çıxış imkanlarının artmasında və qeyri-neft ixracında bu panel müzakirələrinə qatılan xarici ticarət tərəfdaşları ilə aparılan məsləhətləşmələr də xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, Dünya İqtisadi Forumunda iştirak edən qlobal investorlarla görüşlər və əldə edilən anlaşmalar bu şirkətlərin Azərbaycanda işləmək, sərmayə qoymaq niyyətlərini qətiləşdirmək üçün səmərəli platforma kimi yadda qaldı.

***ELBRUS CƏFƏRLİ***

# Türk dövlətləri arasında inteqrasiya güclənir



## Bu il TÜRKPA önəmli tədbirlər keçirəcək

Qloballaşan dünyada yeni güc mərkəzlərinin, eləcə də yeni beynəlxalq təsisatların yaranması zərurətə çevrilir. Regional inkişafın ən mühüm ünsürlərindən sayılan birliklər yeni nizamda bölgənin ümumi mənzərəsində əsaslı rol alır. Türk dövlətlərinin və xalqlarının birliyi də bu nöqteyi-nəzərdən mühüm faktorlardandır. Türk Dövlətləri Təşkilatı kimi mühüm təşkilatlar yeni nizamda regional güc mərkəzləri kimi artıq formalaşma mərhələsinə qədəm qoyur. Türk dövlətləri ilə münasibətlərin inkişafı Azərbaycanın xarici siyasətinin ən mühüm prioritetlərindəndir. Mərkəzi Asiya birliyinin üzvü olması, Türkiyə ilə strateji müttəfiqliyə malik olması Azərbaycanın regional əməkdaşlıq imkanlarını genişləndirir. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. TDT çərçivəsində siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində əsaslı addımlar atılır. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır.

### Təşkilatın fəaliyyəti...

Vurğulandığı kimi, son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığı xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biridə Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində TÜRKPA-nın I plenar sessiyası keçirilib. Plenar sessiyada TÜRKPA-nın Reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsasla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilib. TÜRKPA sədrliyi rotasiya üsulu ilə ildə bir dəfə bir ölkədən digərinə keçməkdədir. TÜRKPA Katibliyi Bakı şəhərində yerləşən və beynəlxalq təşkilat statusuna malik olan qurumdur. Təşkilatın məqsədləri sırasına parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, eləcə də tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması daxildir. Təşkilat həm də tərəflər arasında siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə kömək göstərir.




Eyni zamanda, təşkilata üzv ölkələrin qanunvericiliklərinin, o cümlədən mədəni irsin və tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə türk dövlətləri üçün ümumi əhəmiyyət kəsb edən dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərinin inteqrasiyası üzrə tövsiyələr verməkdə TÜRKPA-nın fəaliyyətində vacib yer tutur.

### "TÜRKPA Plus" formatının tətbiqi mühüm yenilikdir

Yeri gəlmişkən, bugünlərdə TÜRKPA-nın Baş katibi Ramil Həsən bildirib ki, Assambleya Şurasının qəbul olunmuş qərarları çərçivəsində Türk Dövlətləri Parlament Assambleyasının təşəbbüsü ilə qadın və gənc parlamentarilərin hər il bir dəfə toplantısı keçirilir. Bu il də həm qadın, həm də gənc parlamentarilərin TÜRKPA çərçivəsində toplantıları nəzərdə tutulub. Planlaşdırılan tədbirlərdən birinin Türk Dövlətləri Parlament Assambleyasının Qadın Parlamentarilər Toplantısı olduğunu bildirən Baş katib diqqətə çatdırıb ki, belə fəaliyyətlər üzv ölkələr arasında əməkdaşlıq imkanlarını genişləndirərək davamlı dialoq və ortaq layihələrin həyata keçirilməsinə yol açacaq. "Bu toplantılar TÜRKPA-nın hərtərəfli parlament diplomatiyasından istifadə istiqamətində nəzərdə tutduğu mühüm addımlardandır. Belə təşəbbüslər həm əlaqələrin gücləndirilməsinə, həm də gənclərin və qadınların idarəetmə mexanizmində söz sahibi olmasına xidmət edir. Eyni zamanda, gender balansının qorunması və digər mühüm məsələlərin müzakirəsi üçün də əhəmiyyətlidir", - deyə R.Həsən vurğulayıb.

Baş katibin sözlərinə görə, bu il Qazaxıstan parlamenti tərəfindən də TÜRKPA çərçivəsində bir sıra tədbirlər nəzərdə tutulub. O deyib ki, bu tədbirlərdən biri üzv ölkələrin parlamentlərinin Xarici Əlaqələr komitələrinin növbəti toplantısının keçirilməsidir. Qazaxıstanın paytaxtı Astana şəhərində bununla bağlı ciddi hazırlıq prosesi aparılır: "Türk Dövlətləri Parlament Assambleyası qanunvericilik orqanları arasındakı münasibətləri yaxınlaşdırmaq, yeni qanun layihələrinin hazırlanmasına dəstək olmaq və TÜRKPA-nın institusional olaraq güclənməsi üçün fəaliyyət göstərir. Eyni zamanda, rəsmi və hüquqi bazanın gücləndirilməsi, sənədlərin yenilənməsi və beynəlxalq parlament təşkilatı kimi yeni formatda fəaliyyət göstərmək də prioritetlərdəndir. "TÜRKPA Plus" formatının tətbiqi də bu istiqamətdə atılan addımlardandır. Əminik ki, yaxın gələcəkdə həyata keçiriləcək hər bir addım türk dünyasının birlik və bərabərliyinə xidmət edəcək və dövlət başçıları tərəfindən Qəbələdə qəbul olunmuş deklarasiyanın məqsədlərinin həyata keçirilməsində mühüm rol oynayacaq".

Bütövlükdə, bu gün TÜRKPA həm üzv və tərəfdaş dövlətlər, həm də onların hüdudlarından kənarda böyük nüfuza malikdir. Qurum dünyanın ən mötəbər beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlıq çərçivəsində qlobal parlament dialoqunu təşviq edir, parlament diplomatiyası institutunun inkişafında mühüm rol oynayır. Təşkilatın təşəbbüsü ilə keçirilən çoxsaylı tədbirlər, qəbul olunmuş qərarlar, həyata keçirilən fəal parlament diplomatiyası və bütövlükdə əldə olunan nəticələr onu deməyə əsas verir ki, TÜRKPA nəinki Türk dünyasında, həmçinin daha geniş məstəvidə öz layiqli yerini tutmaqdadır.

***Nardar BAYRAMLI***

# Azərbaycan-NATO tərəfdaşlığı...

## Ölkəmiz Alyansla əlaqələrə böyük önəm verir

Ölkəmizin xarici siyasət strategiyasında təhlükəsizlik məsələlərinə daim xüsusi diqqət yetirilir. Bu baxımdan, dövlətimiz NATO ilə əlaqələrə böyük önəm verib və bu əməkdaşlığı səmərəli və balanslaşdırılmış xarici siyasət üçün vacib faktor hesab edib. Ölkəmizin Alyans üçün önəmi isə qurumun rəsmi şəxsləri tərəfindən hər zaman vurğulanıb. Bugünlərdə ölkəmizdə səfərdə olan NATO Baş katibinin müavini Radmila Şekerinskanın fikirləri də bunu təsdiqləyir.

**NATO Baş katibinin müavini ölkəmizin rolunu yüksək qiymətləndirir**

Qeyd edək ki, yanvarın 22-də Milli Məclisin sədri Sahibə Qafarova NATO Baş katibinin müavini Radmila Şekerinskanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycanla NATO arasında 30 ildən artıq müddətdə davam edən əməkdaşlıq vurğulanaraq, Alyansın beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında oynadığı rol yüksək qiymətləndirilib. Söhbət zamanı tərəflər arasında mövcud davamlı və məzmunlu siyasi dialoqun əhəmiyyəti vurğulanaraq bildirilib ki, Prezident İlham Əliyevin NATO mənzil-qərargahına səfərləri, NATO-nun sabiq Baş katibi Yens Stoltenberqin 2024-cü ildə Azərbaycana səfəri, aparılan danışıqlar və müntəzəm təmaslar tərəfdaşlığa yeni dinamika gətirib və bu addımlar siyasi dialoqun intensivliyinin göstəricisi kimi qiymətləndirilib. Azərbaycanın NATO üçün etibarlı və öhdəliklərinə sadiq tərəfdaş olduğu qeyd edilərək, ölkəmizin Alyansın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyəti, regional nəqliyyat-logistika mərkəzi kimi əhəmiyyəti vurğulanıb.





Azərbaycan və Ermənistan arasında sülh prosesinə toxunan S.Qafarova Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz suverenliyini bərpa edərək, bölgədə yeni reallıqlar yaratdığını bildirib. Qeyd olunub ki, məhz Azərbaycan sülh təşəbbüsü ilə çıxış edib, Vaşinqton Sammitindən sonra Ermənistanla əməkdaşlığın irəlilədilməsi üzrə ardıcıl və praktik addımlar atıb.

NATO Baş katibinin müavini Radmila Şekerinska isə Alyansın Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini və tərəflər arasındakı sıx siyasi dialoqu yüksək qiymətləndirdiyini bildirərək, bu münasibətlərin yeni Tərəfdaşlıq Proqramı çərçivəsində daha da dərinləşəcəyinə əminliyini ifadə edib. O, Azərbaycanın NATO ilə əməkdaşlığa və Alyansın üzv ölkələrinin enerji təhlükəsizliyinin təminin olunması istiqamətində verdiyi mühüm töhfələrə görə təşəkkürünü çatdırıb və tərəfdaşlığın gələcəkdə də uğurla davam edəcəyini vurğulayıb. Baş katibin müavini Azərbaycan və Ermənistan arasında sülh və münasibətlərin normallaşdırılması üzrə proses ilə bağlı təbriklərini çatdırıb.

Görüşdə Milli Məclislə NATO Parlament Assambleyası arasında əlaqələrin əhəmiyyəti qeyd olunub, gələcək əməkdaşlıq perspektivləri nəzərdən keçirilib.

**"Rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik" kursu...**

Bundan əlavə, Müdafiə Nazirliyi və NATO arasında 2026-cı il üçün "Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı"na əsasən, Bakıda Türkiyənin İzmir şəhərində yerləşən NATO Quru Qoşunları Komandanlığının Mobil Təlim Qrupu tərəfindən "Rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik" mövzusunda kurs keçirilib. Müdafiə Nazirliyindən verilən məlumata görə, Heydər Əliyev adına Hərbi İnstitutda təşkil olunan kursun əsas məqsədi hərbi qulluqçuların rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik sahələrində nəzəri və praktiki biliklərinin artırılması, müasir texnoloji həll üsul və vasitələrinin tətbiqinin tədris edilməsi, həmçinin iştirakçılara bu sahədə NATO standartları və prosedurlarının öyrədilməsidir.

Kurs ərzində hərbi qulluqçulara NATO-nun Mobil Təlim Qrupu tərəfindən "Rabitə təminatı", "İnformasiya texnologiyaları", "Kibertəhlükəsizlik" və digər mövzularda brifinqlər təqdim edilib, nəzəri və praktiki məşğələlər təşkil olunub. Kursun yekununda iştirakçılara sertifikatlar təqdim edilib.

Göründüyü kimi, ölkəmizlə Alyansın geniş əlaqələri mövcuddur. Xatırladaq ki, Azərbaycanla NATO arasında tərəfdaşlığın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 4 may 1994-cü il tarixində "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının Çərçivə Sənədinin imzalanması ilə qoyulub. 1997-ci ildə isə Azərbaycan SNT Planlaşdırma və Analiz Prosesinə qoşulub. Ölkəmizin NATO ilə tərəfdaşlığı onun Avratlantik strukturlara inteqrasiya məqsədinə xidmət edir. Azərbaycan-NATO tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatları, meydana gələn təhlükəsizlik təhdidləri və əsas vurğusu müdafiə məsələlərinə yönələn genişspektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında Azərbaycanın qarşılıqlı maraqlar əsasında NATO ilə əməkdaşlıq məsələsi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında öz əksini tapır. Beləliklə, Azərbaycanın hərbi qanunvericiliyi NATO standartlarından faydalanaraq daha da təkmilləşdirilib.

**Kosovo və Əfqanıstanda sülhə xidmət**

Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığının məqsəd və prinsipləri əsas etibarilə Azərbaycanın SNT Təqdimat Sənədi, Planlaşdırma və Analiz Prosesi və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında öz əksini tapır. Bu sənədlərdə Azərbaycan müdafiə və təhlükəsizlik sahəsində islahatlar aparılması, hərbi qüvvələrin NATO standartlarına uyğun inkişaf etdirilməsi, NATO əməliyyatlarında iştirak, enerji təhlükəsizliyinin təmin olunması, fövqəladə hallara hazırlıq, meydana çıxan təhlükəsizlik çağırışları ilə mübarizə, eləcə də ətraf mühit və ictimai diplomatiya sahələrində əməkdaşlıq niyyətini ifadə edir. 1999-cu ildə Azərbaycan Kosovoda olan NATO-nun sülhməramlı əməliyyatlarına dəstək məqsədilə hərbi birlik göndərib. 2001-ci ildə Azərbaycan çoxmillətli "Qətiyyətli əməkdaşlıq - 2001" SNT hərbi təlimini həyata keçirib. 2002-ci ildə isə Azərbaycan Əfqanıstana NATO qüvvələrini dəstəkləmək məqsədilə hərbi birlik göndərib. 2005-ci ildə isə Azərbaycan NATO ilə ilk dəfə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində əməkdaşlığa başlayıb.

**Əməkdaşlıq Ordumuzun güclənməsində vacib rol oynayır**

Qeyd edək ki, Prezident İlham Əliyev Brüsselə səfərləri zamanı Alyansın rəhbərliyi ilə görüşüb, 2021-ci il dekabrın 14-də isə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak edib. 2024-cü ilin mart ayında da NATO-nun o vaxtkı Baş katibi Yens Stoltenberq ölkəmizə səfər edib. Səfər zamanı Prezident İlham Əliyevlə NATO Baş katibinin təkbətək görüşü olub, sonra mətbuata bəyanat zamanı Azərbaycan-NATO əlaqələri yüksək qiymətləndirilib.

Hazırda NATO-nun təqdim etdiyi təhlükəsizlik sistemləri dünyanın inkişaf etmiş ölkələri tərəfindən tətbiq olunmaqdadır. Bu baxımdan Azərbaycan üçün Alyansla səmərəli əməkdaşlıq transsərhəd, dəniz və kiber sahələrdə təhlükəsizliyin təminatı baxımından faydalıdır.

Bütövlükdə, Azərbaycan dövləti Silahlı Qüvvələrin maddi-texniki təchizatının və kadr hazırlığının gücləndirilməsini həmişə diqqət mərkəzində saxlayır. Müstəqilliyimizin ilk illərindən indiyədək ordumuzun gücləndirilməsində NATO ilə əməkdaşlıq önəmli rol oynayıb. Beynəlxalq reytinq agentliklərinin dəyərləndirmələrinə görə, bu gün Azərbaycanın Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində özünün gücünü, yüksək peşəkarlığını nümayiş etdirərək ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Müharibədə Silahlı Qüvvələrimiz tərəfindən innovativ texnologiyalardan geniş istifadə olundu. Əcnəbi mütəxəssislərin də qənaəti belədir ki, 44 gün ərzində Azərbaycan XXI əsrin müharibəsini apararaq qələbə qazanıb. Bir sözlə, Azərbaycan Ordusu regionda sabitlik və sülhün möhkəmlənməsinə xidmət göstərir. Bu prosesdə NATO ilə əməkdaşlıq vacib rol oynayır.



***Nardar BAYRAMLI***

# Müasir Azərbaycanın yeni inkişaf yolu

## 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi müasir gələcək fəlsəfəsinin təqdimatıdır

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasət kursu Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşub. Qürurverici haldır ki, bu gün Azərbaycan Cənubi Qafqazda lider və dünyada söz sahibi olan müstəqil dövlətdir. Hazırda ölkəmizin hər yerində, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa - tikinti işləri beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Əvvəlki illərlə müqayisədə indi ölkəmizə gələn xarici turistlərin sayı da xeyli artıb. Prezident İlham Əliyevin Sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu istiqamətdə əsaslı yeniliklərə imkan verəcək. Dövlətimizin başçısının bu Sərəncamı təkcə yeni tikililərin deyil, bütöv bir inkişaf fəlsəfəsinin təqdimatıdır. Ölkəmizdə əsrlərin yaddaşını yaşadan tarixi abidələrin qorunması ilə yanaşı, müasir şəhərsalma modeli də formalaşdırılır. Bu, eyni zamanda, çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması və bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların tətbiqində mühüm rol oynayacaq.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Müdrik şəxsiyyətin memarlıq və dizaynına şəxsən nəzarəti altında tikilmiş, bu gün də dövlət və beynəlxalq tədbirlərin məkanına çevrilmiş Gülüstan sarayı, beynəlxalq idman yarışlarının keçirilməsi üçün çox əlverişli hesab edilən Bakı İdman-Konsert Kompleksinin tikintisində milli üslubların qorunmasına, modern və ənənəvi elementlərin birləşdirilməsinə xüsusi diqqət yetirilmişdir. Belə tikililər paytaxtımızın simasının əhəmiyyətli dərəcədə dəyişməsində mühüm rol oynayıb. Ulu Öndərin ölkəmizə ilk rəhbərliyi dövründə Azərbaycanın şəhərsalma sistemlərinin qorunması və müasirləşdirilməsi ilə bağlı vacib qərarlar qəbul edilmiş, çoxsaylı tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, şəhərsalma və memarlıq fəaliyyətinin davamlılığını təmin edən əsaslı tədbirlər həyata keçirilmişdir.

Ulu Öndərin müstəqillik dövründə respublikamıza rəhbərliyi dövründə də şəhərsalma və memarlığın inkişafı ilə yanaşı, mədəniyyət, eləcə də mədəni irsimizin qorunmasına, mühafizəsinə, inkişafına xüsusi önəm verilmiş, bu xətt yüksək peşəkarlıq və siyasi iradə ilə yürüdülən siyasətin prioritetlərindən birinə çevrilmişdir. Qürurverici haldır ki, bu ənənə Prezident İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilir. Azərbaycanın müasir dövlətçilik tarixində müstəsna yeri olan Ümummilli Lider Heydər Əliyev xalqımızın taleyində dönüş nöqtəsi yaratmış, müstəqil və güclü Azərbaycanın memarı kimi tarixə düşmüşdür.



Memarlıq yalnız binalar inşa etmək deyil, möhkəm təməl, dəqiq hesab və uzaqgörən plan tələb edən sənətdir. Tarixi şəxsiyyət də Azərbaycan dövlətçiliyinin təməlini möhkəm və sarsılmaz edib. Ulu Öndər ölkəni parçalanmadan xilas edərkən siyasi qərarlarını memar dəqiqliyi ilə ölçüb-biçir, gələcək nəsilləri düşünərək ölkənin inkişaf strategiyasını hazırlayırdı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illər ölkəmiz xaos və böhran içində boğularkən xalq son ümid yeri kimi Ulu Öndərə müraciət etdi. Həyatının qalan hissəsini də xalqına, Vətəninə bağışlamağa hazır olduğunu bildirən Ulu Öndər dövlətin təməlini, dayaqlarını möhkəmləndirdi, sütunlarını sabitlik, qanunçuluq və milli birlik üzərində qurdu. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi, neft strategiyasının müəyyənləşdirilməsi, ordu quruculuğu və dövlətçilik institutlarının formalaşdırılması - bütün bunlar böyük quruculuq planının əsas elementləri idi. Ulu Öndərin çoxşaxəli və uzaqgörən fəaliyyəti nəticəsində Azərbaycan siyasi sabitliyə, iqtisadi inkişafa nail olmuş, beynəlxalq aləmdə nüfuz sahibi olmuşdur.

Ümummilli Lider Azərbaycanın yeni dövr üçün demokratik inkişaf modelini müəyyənləşdirdi, bu mütərəqqi inkişafın ictimai şüurda möhkəmlənməsini zərurət kimi ön plana çəkdi. Böyük öndərin dövlətçilik konsepsiyası Azərbaycanın tarixi ənənələrini və müasir Avropa dəyərlərini özündə birləşdirən yeni inkişaf modelini özündə birləşdirdi. İctimai-siyasi sabitlik bu modelin əsas dayaqlarından, istinad nöqtələrindən biri kimi çıxış etdi.

Dahi şəxsiyyət Heydər Əliyev tarixdə yalnız böyük siyasətçi kimi deyil, millətin taleyini memar dəqiqliyi ilə inşa edən dahi qurucu kimi qalacaq. Çünki Azərbaycan adlı bu möhtəşəm əsərin baş memarı məhz Ulu Öndər Heydər Əliyevdir.

Ulu Öndərin siyasi kursunu yeni dövrə, müasir çağırışlara uyğun layiqincə davam etdirən Prezident İlham Əliyevin müdrikliyi şəhərsalma və memarlığın daha da inkişaf etdirilməsinə zəmin yaratdı. Məhz dövlət başçımızın diqqət və qayğısı sayəsində şəhər quruculuğu sahəsindəki yeni təzahürlər, ölkədə inşa edilən monumental komplekslərin memarlıq həlli yeni mərhələyə qədəm qoydu. Xalqımız dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsində də bunun şahidi oldu. Son illər yaradılan şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələr şəhərimizə gələn turistlər tərəfindən də heyranlıqla qarşılanır. Belə orjinal nümunələr sırasına daim yeniləşmə rəmzi olan möhtəşəm Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələri, Ağ şəhər kompleksi daxildir. Bunlarla yanaşı, regionların memarlıq siması da zənginləşərək yeni şəkil almışdır. Son vaxtlar Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma, bərpa-tikinti işlərini, yol infrastrukturnu, möcüzəvi tunellərin tikintisini xüsusi qeyd etmək istərdim.

Ötən 23 ildə Ulu Öndərin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycanın bütün sahələrdə qazandığı qələbələr sıralandı. Bu gün Azərbaycan dünya birliyində Qalib dövlət kimi tanınır. Bütün bunların əsasında dövlət başçımızın yüksək səviyyəli dövlətçilik konsepsiyası, siyasi strategiyası dayanır. Yeni dövrün siyasi lideri kimi dünyada şöhrət qazanmış Prezident İlham Əliyev xalqı inamla Heydər Əliyev ideyaları ətrafında birləşdirir, vətəndaşlarımızın rifahı, dövlətimizin inkişafı ətrafında cəm edir. Artıq bu istiqamətdə də xalqımızın əsas gözləntiləri həyata keçirilib. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz Ulu Öndərin məzarını ziyarət edərkən deyib: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim".

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması Azərbaycan dövlətinin dayanıqlı inkişaf, estetik mühit və müasir şəhər modelinə verdiyi önəmin bariz nümunəsidir. Bu qərar şəhərsalma və memarlığın yalnız texniki sahə deyil, eyni zamanda, milli kimliyin, mədəni irsin və sosial rifahın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiqləyir. Bu gün aparılan genişmiqyaslı quruculuq işləri, şəhər və kəndlərin yenidən qurulması, tarixi memarlıq irsinin qorunması məhz Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasının uğurlu davamıdır. Qarabağın dirçəlişi isə bu memarlıq baxışının ən parlaq davamıdır.

Bu gün Azərbaycan Respublikasının qazandığı uğurlar, regional və qlobal miqyasda artan nüfuzumuz Prezident İlham Əliyevin Heydər Əliyev siyasi irsini davamlı şəkildə inkişaf etdirməsinin təntənəsidir. Müasir, güclü və qalib Azərbaycan Heydər Əliyev ideyalarının real təcəssümüdür.

***Naminə Ömərova,***
***Yasamal rayon Heydər Əliyev***
***Mərkəzinin direktoru***

# Sülh, birlik və təhlükəsizlik mesajı



## Qlobal Bakı Forumu: qlobal düşüncə və ideyalar mərkəzi...

Bakı artıq uzun illərdir ki, qlobal sivilizasiyaların, mədəniyyətlərin və siyasi baxışların kəsişdiyi mühüm beynəlxalq məkandır. Tarixi İpək Yolunun üzərində yerləşən Azərbaycan coğrafi mövqeyini müasir dövrdə siyasi, iqtisadi və humanitar dialoq platformasına çevirə bilib. Bu baxımdan Bakı bu gün regionun deyil, bütövlükdə Avrasiya məkanının əsas siyasi və mənəvi mərkəzlərindən biri kimi çıxış edir.

Azərbaycanın multikulturalizm, tolerantlıq və sülhə əsaslanan dövlət siyasəti Bakını beynəlxalq dialoq üçün ideal məkana çevirib. Müxtəlif dinlərin, mədəniyyətlərin və etnik qrupların əsrlər boyu dinc yanaşı yaşadığı bu torpaq qlobal qarşıdurmaların artdığı bir dövrdə uzlaşma modeli təqdim edir. Rəsmi Bakının müstəqil xarici siyasət kursu isə ölkənin beynəlxalq nüfuzunu daha da gücləndirib. Məhz bu siyasi və mənəvi mühit fonunda hər il keçirilən Qlobal Bakı Forumu dünyada sülhün, təhlükəsizliyin və bəşəri dəyərlərin təşviqi baxımından mühüm missiya daşıyır. Dünyanın müxtəlif ölkələrindən sabiq və fəaliyyətdə olan dövlət və hökumət başçıları, nüfuzlu siyasətçilər, beynəlxalq təşkilatların rəhbərləri, ekspertlər və analitiklər Bakıda bir araya gələrək qlobal gündəmin əsas məsələlərini müzakirə edirlər. Yeri gəlmişkən, XIII Qlobal Bakı Forumu cari il martın 12-14-də keçiriləcək. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin məlumatına görə, tədbirdə 400-dən çox xarici qonağın iştirakı gözlənilir. Qeyd edək ki, XIII Qlobal Bakı Forumu da beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olacaq mühüm siyasi hadisə kimi qiymətləndirilir.

**Beynəlxalq dialoq platforması...**

Bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Prezident İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Azərbaycanın belə forumlara ev sahibliyi etməsi, ildənilə iştirakçıların sayında nəzərəçarpan artım ölkəmizə olan diqqət və etimadın, dövlətimizin başçısı İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir.

Forumun əsası 2013-cü ildə qoyulub və qısa müddət ərzində dünya miqyasında tanınan dialoq platformasına çevrilib. İlk forumlardan etibarən Bakı platforması qlobal çağırışların açıq və səmimi müzakirə olunduğu etibarlı tribuna kimi formalaşıb. Forumun yaranmasında əsas məqsəd beynəlxalq münasibətlər sistemində artan gərginliklər, münaqişələr, etimadsızlıq və geosiyasi qarşıdurmalar fonunda dialoqu təşviq etmək idi. Bu baxımdan Qlobal Bakı Forumu "güc dili"nin deyil, "söz və anlaşma dili"nin önə çəkildiyi nadir beynəlxalq platformalardan biri kimi tanınıb.

İllər ərzində forumun mövzuları qlobal təhlükəsizlik, enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri, multilateralizm böhranı, humanitar problemlər, regional münaqişələr, yeni dünya nizamı və beynəlxalq təşkilatların rolu kimi aktual məsələləri əhatə edib. Forumda səslənən fikirlər, irəli sürülən təşəbbüslər və çağırışlar bir çox hallarda beynəlxalq mediada və siyasi dairələrdə ciddi rezonans doğurub.

Xüsusilə postpandemiya dövründə Qlobal Bakı Forumu qlobal idarəetmədə yaranmış boşluqların, beynəlxalq hüququn zəifləməsinin və çoxtərəfli mexanizmlərin səmərəliliyinin müzakirə edildiyi əsas platformalardan biri olub. XIII Qlobal Bakı Forumu isə bu tarixi ardıcıllığın məntiqi davamı olaraq yeni qlobal reallıqlar fonunda keçirilir.

**Forumun geosiyasi missiyası...**

Qlobal Bakı Forumu ilk növbədə qlobal gündəmin ən ağrılı və həssas mövzularının açıq şəkildə müzakirə edilməsi ilə yadda qalır. Burada siyasi korrektlik naminə problemlərin üstündən keçilmir, əksinə, real çağırışlar real arqumentlərlə müzakirə olunur. Forumun əsas üstünlüklərindən biri də məhz bu açıq dialoq mühitidir.

Forum çərçivəsində beynəlxalq təhlükəsizlik arxitekturasının gələcəyi, regional münaqişələrin həlli yolları, enerji və ərzaq təhlükəsizliyi, iqlim dəyişikliyi və humanitar böhranlar əsas müzakirə mövzuları sırasında yer alır. Xüsusilə Cənubi Qafqaz, Yaxın Şərq, Şərqi Avropa və Asiya-Sakit okean regionlarında baş verən proseslər Bakı platformasında geniş təhlil olunur.

Eyni zamanda forum beynəlxalq təsisatların mövcud böhranlar fonunda rolunu və effektivliyini müzakirə edən mühüm tribuna rolunu oynayır. Qlobal Bakı Forumu yeni dünya nizamında orta güclərin və regional aktorların artan rolunu da gündəmə gətirir. Forumun yaddaqalan məqamlarından biri də Azərbaycanın beynəlxalq proseslərdə konstruktiv və məsuliyyətli aktor kimi təqdim olunmasıdır. Bakı burada təkcə ev sahibi deyil, həm də sülh, əməkdaşlıq və dialoq təşəbbüslərinin fəal müəllifi kimi çıxış edir. Bu isə Azərbaycanın artan geosiyasi çəkisini və beynəlxalq etimadını açıq şəkildə nümayiş etdirir.

Bu mənada, XIII Qlobal Bakı Forumu da müasir dünyanın mürəkkəb və çoxşaxəli çağırışları fonunda beynəlxalq dialoq üçün mühüm platforma olaraq xüsusi əhəmiyyət daşıyır. Qlobal qarşıdurmaların, siyasi qütbləşmənin və etimadsızlığın artdığı bir dövrdə Bakıdan verilən dialoq və əməkdaşlıq mesajları beynəlxalq ictimaiyyət üçün ciddi əhəmiyyət kəsb edir.

**Qlobal çağırışlara cavab...**

Qlobal pandemiya dövründə davranışları, kolonializmdən əziyyət çəkən ölkələrə yardımları, qlobal iqlim dəyişikliyindən zərər görən dövlətlərin hüquqlarının müdafiəsi kimi mühüm fəaliyyət spektrləri Azərbaycanın müasir beynəlxalq aləmdəki yerini müəyyənləşdirib. Bu, Bakının əhəmiyyətini, əməkdaşlıq üçün tam etimad edilən dövlət kimi qəbul olunduğunu göstərir. Müasir çağırışlar çoxtərəfliliyi təbliğ edir - xüsusilə, ticari-iqtisadi münasibətlərin diversifikasiya edilməsi ölkələrarası əlaqələrə rəngarənglik qatır. Azərbaycanın bütün qlobal mühit üçün alternativ enerji və nəqliyyat marşrutu kimi strateji əhəmiyyətinin artması faktaloji haldır - xüsusilə, Cənub Qaz Dəhlizi, yaşıl enerji layihələri və Zəngəzur dəhlizi kimi təşəbbüslər bu kimi məqamlarda ön plana çəkilir. Paralel olaraq təhlükəsizlik amili yeni dövrün əsas komponentlərindən biri olaraq çıxış edir. Azərbaycanın siyasi praqmatizmə əsaslanan mövqeyi və regional sülh təşəbbüsləri iştirakçı ölkələr tərəfindən bütün mənalarda təqdir edilir. Bu isə Azərbaycanın regionda sülh və inkişafın əsas mənbəyi olmasını daha da qətiləşdirir.

Sözügedən forum bir daha sübut edir ki, Azərbaycan yalnız regional deyil, qlobal miqyasda da sülh və sabitliyin tərəfdarı olan məsuliyyətli dövlətdir. Qlobal Bakı Forumu vasitəsilə Bakı dünyaya göstərir ki, problemlərin həlli qarşıdurmada deyil, dialoqda və qarşılıqlı anlaşmadadır. Məhz bu yanaşma Qlobal Bakı Forumunu sıradan beynəlxalq tədbirdən çıxararaq qlobal düşüncə və ideyalar mərkəzinə çevirir.

***P.SADAYOĞLU***

# Qrenlandiya ilə bağlı yeni razılaşma əldə olunub

***N.BAYRAMLI***

Artıq uzun müddətdir ki, davam edən Qrenlandiya ilə bağlı problem yeni həll yoluna qədəm qoyur. Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp Qrenlandiya ilə bağlı iddialarından geri çəkilmir. Qrenlandiyanı qorumaq baxımından Danimarkanı həddən artıq zəif adlandıran Donald



Tramp bu məsələ ilə bağlı əsas mövqeyini açıqlayıb. O, deyib: "Ora bizim üçün strateji milli və beynəlxalq təhlükəsizlik baxımından zəruri ərazidir. Bu nəhəng, qorunmayan ada faktiki olaraq Şimali Amerikanın bir hissəsidir. Ora bizim ərazidir. Qrenlandiyanın ABŞ-ın nəzarətinə keçirilməsi məsələsinin müzakirəsinin bərpası üçün danışıqlara dərhal başlanılmasında israr edirəm".

**5 əsas komponentdə nələr var?**

Ağ Evin rəhbəri Davosda NATO-nun Baş katibi Mark Rutte ilə keçirdiyi görüşdən sonra isə pozitiv açıqlama verib. O, Alyansın Baş katibi ilə görüşü çox məhsuldar hesab edib və deyib ki, görüşə əsasən, Qrenlandiya və əslində bütün Arktika bölgəsi ilə bağlı gələcək razılaşmanın çərçivəsi formalaşdırılıb. ABŞ Prezidenti "Truth" sosial şəbəkəsində yazıb ki, fevralın 1-dən qüvvəyə minməsi planlaşdırılan tarifləri tətbiq etməyəcək: "Bu həll yolu tətbiq olunarsa, Amerika Birləşmiş Ştatları və bütün NATO ölkələri üçün əla olacaq.

Qrenlandiya məsələsi çərçivəsində "Qızıl qübbə" ilə bağlı əlavə müzakirələr aparılır. Müzakirələr irəlilədikcə əlavə məlumatlar təqdim ediləcək. Vitse-prezident C.D. Vens, Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiv Uitkoff danışıqlara cavabdeh olacaqlar".

"The Times" qəzeti də öz mənbələrinə istinadən yazıb ki, ABŞ Prezidenti Donald Tramp və NATO-nun Baş katibi Mark Rutte tərəfindən razılaşdırılmış Qrenlandiya ilə bağlı çərçivə sazişi adada ittifaq komandanlıq mərkəzindən tutmuş Rusiya və Çin investisiyalarının qadağan edilməsinə qədər 5 əsas komponenti əhatə edir. Qəzet bildirir ki, Tramp və Rutte arasında müzakirə edilən sazişdə 1951-ci ildə Vaşinqton və Kopenhagen tərəfindən imzalanmış Qrenlandiya Müdafiə Müqaviləsinin yenilənəcəyi nəzərdə tutulur. Qrenlandiyada hərbi infrastruktur, stansiya və komandanlıq qoşunları yaratmaq azadlığına malik olan ABŞ, hərbi personalı üçün tam muxtariyyət və mütləq toxunulmazlıq əldə edəcək.

Qeyd olunur ki, çərçivə müqaviləsindəki digər vacib məqamlar adada NATO komandanlıq mərkəzinin yaradılması, ABŞ-ın Qrenlandiyanın mineral sərvətlərinə çıxış əldə etmək imkanı, adada Rusiya və ya Çin investisiyalarına, həmçinin digər layihələrə mane olacaq eksklüziv rejim müqaviləsidir. Nəhayət, ada satışa çıxarılacağı təqdirdə ABŞ-a Qrenlandiyanı əldə etmək üçün birincilik hüququ təmin etmək təklif olunur. Məqalədə deyilir ki, bunun müqabilində ABŞ Avropa ölkələrinə qarşı tariflərdən imtinaya və müqavilənin təfərrüatlarını müzakirə etməyə başlamağa razılaşıb.

"Daily Mail" nəşri isə yazır ki, Qrenlandiya əhalisi ABŞ-ın tərkibinə keçməyə səs verərsə, Donald Tramp adanın hər bir sakininə 1 milyon dollar ödəməyi düşünür. Qəzet qeyd edir ki, adanın hazırkı əhalisi 57 min nəfərdir. Davosda keçirilən Dünya İqtisadi Forumundakı çıxışı zamanı Tramp Qrenlandiya üzərində nəzarətə nail olmaq üçün güc tətbiq etməyi planlaşdırmadığını desə də, Avropa hələ də narahatdır. Belə ki, Qrenlandiyanın Baş naziri Yens-Frederik Nilsen adanın paytaxtı Nuukda keçirilən mətbuat konfransında hökumətinin ABŞ ilə danışıqlara hazır olduğunu bildirib. Bununla yanaşı, vurğulayıb ki, Qrenlandiyanın suverenliyi "qırmızı xətt"dir. Hökumət başçısı hazırda müzakirə olunan saziş barədə ətraflı məlumata malik olmadığını da qeyd edib.

**Aİ Qrenlandiyaya investisiya yatıracaq**

Qrenlandiyanın Baş naziri hətta, hakimiyyət orqanlarına və sakinlərə ABŞ-ın mümkün hərbi müdaxiləsinə hazır olmağı tapşırıb. "Bloomberg" agentliyinin məlumatına görə, Qrenlandiya hökuməti, həmçinin əhalini evlərində beşgünlük ərzaq ehtiyatı



saxlamağı tövsiyə edib. Danimarka parlamentinin müdafiə komitəsinin üzvü Rasmus Yarlov isə "CNN" telekanalına müsahibəsində ABŞ-ın Qrenlandiyaya hücum edəcəyi təqdirdə, müharibənin başlayacağını və işğalçıya qarşı müqavimətin göstəriləcəyini bildirib: "ABŞ-ın bizdən güclü olduğunu bilirik, lakin bizim vəzifəmiz torpağımızı və xalqımızı müdafiə etməkdir".

Bütün bunların fonunda Avropa İttifaqı da Qrenlandiya məsələsində yeniliklərdə öz rolunu uğurlu hesab edir. Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen bəyan edib ki, Avropa İttifaqının Qrenlandiya ilə bağlı strategiyası öz bəhrəsini verib. Onun sözlərinə görə, Qrenlandiya və Danimarka ilə birmənalı həmrəylik nümayiş etdirilib, tariflərin tətbiqi ilə hədələnən 6 üzv dövlətə möhkəm dəstək göstərilib və ABŞ-la müxtəlif səviyyələrdə əməkdaşlıq həyata keçirilib. "Biz qətiyyətlə hərəkət etdik, lakin eskalasiyaya yol vermədik",-deyən xanım Lyayen etiraf edib ki, Aİ Arktikaya kifayət qədər investisiya qoymayıb. Ona görə də indi bunun üçün ən uyğun vaxtdır. "Keçən il biz əlavə investisiyalara səbəb olacaq təmiz enerji, ən vacib xammal və rəqəmsal rabitə sahələrində sazişlər imzaladıq. Hazırda Aİ-nin Qrenlandiya ilə münasibətlərini gücləndirmək üzərində işləyirik, komissiya yaxın vaxtlarda əhəmiyyətli investisiya paketi təqdim edəcək", - deyə o vurğulayıb. Fon der Lyayen, həmçinin həftənin əvvəlindən bəri dəfələrlə səsləndirdiyi ABŞ və digər tərəfdaşlarla Arktikanın təhlükəsizliyi sahəsində əməkdaşlığın dərinləşdirilməsi planlarını bir daha təkrarlayıb.

# Sİ (Süni İntellekt) bizə nə deyir?

Deyir ki, qorxmayın. Amma ehtiyatlı olun. Düşünün. Bədgümanlığa qapılmayın...

...2021-ci ildə 193 ölkə tərəfindən qəbul edilmiş “Süni İntellekt etikasına dair tövsiyələr”i dərindən araşdırdıqca belə məlum olur ki, bu sahə dövlət və cəmiyyət idarəçiliyinin tərkib hissəsi kimi qəbul edilməkdədir.

UNESCO Süni İntellektə dair üzv ölkələrə kömək etmək üçün vasitələri, etik məsuliyyəti, hərtərəfli təsəvvür yaratma üsullarını, hətta bundan sonrakı aktiv fazaya hazırlığı, qiymətləndirmə metodologiyalarını MƏDƏNİYYƏT çərçivələrinə sığışdırmaq niyyətindədir. Axı hər necə olursa-olsun, həyatımız mədəniyyətsiz tənzimlənə bilməz. Gec-tez müharibələr bitir, təhdid buludları seyrəlir, lakin nə mədəniyyətin qayğıları tükənir, nə də insanlığın mədəniyyət qarşısındakı öhdəlikləri.

Bu mənada, Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2026-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Mədəniyyəti - 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası həm də Süni İntellekt əsrindəki mədəniyyət çağırışlarına hazırlıqdır.

“Oxford Insights” beynəlxalq tədqiqat mərkəzi tərəfindən hazırlanan “Hökumətlərin Süni İntellektə Hazırlıq İndeksi”nin (Government AI Readiness Index) 8-ci buraxılışı nəşr olunub. 2025-ci ilin nəticələrinə əsasən, Azərbaycan 195 ölkə arasında 70-ci yerdə qərarlaşıb. Ölkəmiz ümumi 49 bal toplayaraq Cənubi və Mərkəzi Asiya regionu üzrə orta göstərici hesab olunan 41,4 balı üstələyib, həmçinin Cənubi Qafqaz ölkələri arasında ən yüksək nəticə göstərib. 2025-ci il buraxılışında qiymətləndirmənin 195 ölkə üzrə aparılması indeksin indiyədək topladığı ən əhatəli məlumat bazasına istinad etdiyini göstərir (mənbə: “Oxford Insights”, AzərTAC).

“Süni İntellektə Hazırlıq İndeksi”miz artıq qlobal Süni İntellekt gündəliyində hökumətlərin hazırlığını ölçən və ən çox istinad edilən sənədlərdən biri hesab olunur, hökumətlər və G20 kimi beynəlxalq platformalar üçün müqayisə, istiqamətləndirmə aləti rolunu oynayır.

Bundan sonrası rəqəmsal transformasiyanın sürətləndirilməsi, beynəlxalq meyarlarla uzlaşma, “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nda müəyyən edilmiş tapşırıqların, həmçinin “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya”da nəzərdə tutulan data əsaslı qərarvermə, rəqəmsal infrastrukturun gücləndirilməsi və sektorlar üzrə transformasiya hədəflərinə nail olmaqdır.

Əslində, Süni İntellekt (Sİ) etikası anlayışı texnologiyanın inkişafı ilə paralel şəkildə formalaşıb. Elmi-fantastik kökləri (1940-1950-ci illər) olduğu vurğulansa da, Sİ etikasının təməli hələ texnologiya mövcud olmamışdan əvvəl, ƏDƏBİYYATDA qoyulub (hərçənd, yazılı və şifahi ədəbi mətnlərin mesajları daş yazılardan da əvvələ aparıb çıxarır).

Ayzak Azimovun 1942-ci ildə yazdığı “Dolanbac” (tərcümə şərtidir-M.N) hekayəsində maşınların insanlara zərər verməməsi prinsipinə əsaslanan etik çərçivələrdən bəhs edilir. 1950-ci ildə isə Alan Türinq yazdığı “Hesablama maşınları və intellekt” məqaləsində maşınların düşünmə qabiliyyəti və bunun yarada biləcəyi fəlsəfi sualları gündəmə gətirib.Yalnız 1970-ci illərdən başlayaraq, Sİ etikası barədə akademik və fəlsəfi müzakirələr vüsət alıb. Yəni, kompüterlər mürəkkəbləşdikcə etika nəzəriyyəsi formalaşıb. Budur, biz artıq qlobal çərçivələr yaratmaqdan, “Big Data”ların dərin öyrənmə inkişafının Sİ etikasına qlobal siyasi təsirindən danışırıq.

Avropa Birliyi tərəfindən qəbul edilən və 2025-ci ilin avqust ayında qüvvəyə minən Süni İntellekt Aktı (AI Act) da etik normaları hüquqi öhdəliyə çevirən əhatəli sənəddir. Yeni qaydalar süni intellekt tərtibatçılarından əqli mülkiyyətin və müəlliflərin, o cümlədən məzmun sahiblərinin hüquqlarının qorunmasını tələb edir. Fiziki şəxslər bu cür pozuntulara görə süni intellekt şirkətlərini məhkəməyə verə bilərlər.

Bu gün Sİ etikası sadəcə fəlsəfi bir mövzu deyil, texnologiya şirkətləri üçün məcburi standart və dövlətlər üçün milli təhlükəsizlik məsələsidir.

Mədəniyyət sektorumuz bu çağırışlara necə cavab verəcək? Dilimiz qlobal mövqelərdə öz yerini möhkəmləndirə biləcəkmi? Bütün bu çağırışlara hazırıqmı? Xüsusilə, dil mədəniyyətinin gələcəyi necə olacaq?

Bu məsələlər dilimizin də inkişafına dair tapşırıqları nəzərdə tutan “Azərbaycan Mədəniyyəti - 2040” Konsepsiyasında necə yer alır?

Əgər Sİ (Süni İntellekt) həm də ədəbiyyat təxəyyül və təsəvvürüdürsə, bundan sonra nə baş verə bilər? Sİ-nin ədəbiyyat və mədəniyyət qarşısında yaratdığı problemlər Qərbdə və Şərqdə, Şimalda, Cənubda necə tənzimlənir?

Gələn yazımızda bu suallara cavab axtarmağa çalışacağıq. Çünki, mümkün cavablar düşündürücü, amma tərəddüd yaratmayacaq qədər maraqlıdır...



*Məqsəd Nur*

# Tənhalıqdan qurtuluş

## Orxan Pamukun “Qara kitab” romanı haqqında

*əvvəli ötən saylarımızda*

Hegelin təbiriylə desək, ilahi məhəbbət özünü başqasında, başqalarında tapmaqdır; ayrı sözlə, sevən kəs özündə yoxa çıxıb özgəsində zühur eləyir. Sufilərin fəna-fillah nəzəriyyəsi, vəhdəti-vücud fəlsəfəsi də aşağı-yuxarı elə bu deməkdir: aşiq özünü badi-fənaya verib Allahda təcəlla eləyir, özündə ölüb Allahda dirilir, bununla da faktiki bəndəlik məqamından allahlıq mərtəbəsinə ucalır. Allah isə, Əttarın əsərindən yola çıxsaq, başqalarının cəmi, vəhdəti deməkdir; heç təsadüf deyil ki, Tövratda, Quranda da Yaradan özünü çox vaxt “Biz” əvəzliyi ilə təqdim eləyir, elə sufizmin, Hegelin, külli idealizmin də allahı Quranda özünü “Biz” adlandıran, varlığını birinci şəxsin cəmində cəmləşdirib təsdiqlə(y/d)ən allahdır. Orxan Pamukun romanı fəna-fillah, vəhdəti-vücud konsepsiyasının modern fırçayla çəkilmiş illüstrasiyası, təkliyin çoxalmasının, çoxluğun birləşib yenidən təkləşməsinin, “mən”in “biz”ləşməsinin sivilizasiyanın yaşına uyğunlaşdırılmış çağdaş yozumudur.

Fəqət məhəbbətin gücüylə özgəsinə çevrilməyi, özgəsiləşməyi əsla başqalarını təqlidlə qarışdırmaq olmaz. Təqlid məhz özgələşmədir, özgəsiləşmə deyil. Qalibin gecə pavilyonunda ünsiyyətə girdiyi yüngülbeyin qadın yalançı təcəllaya parodiya, təqlidçiliyə karikatura, insanın özünə yadlaşmasına, özünə qayıdıb özü ola bilməməsinə tragikomik illüstrasiyadır: qadın bütün varlığıyla Türkan Şoraya bənzəməyə çalışır, davranışı, jesti, nitqiylə məşhur aktrisanı yamsılayır, Türkan Şorayın filmlərindən seçib əzbərlədiyi cümlələr, ifadələrlə danışır, di gəl, orijinalına çevrilə bilmir, pərəstiş obyektinin varlığına bir şey artırmır, ömrü boyu başqalarını yamsılayan şair kimi orijinalının mötərizəndə yatır, əslinin yedəyində sürünür.

***

Bunun əksinə, ikinci bölümün “Əsrarlı rəsmlər” adlı on dördüncü fəslində (Qalibin Cəlalın adından yazdığı köşə yazısı) gerçək təcəllanın mahiyyəti obrazlı şəkildə açılır. Bu fəsildə guya 1952-ci ildə İstanbulun Bəyoğlu məhəlləsində təşkil olunmuş bir rəsm yarışması xatırlanır. Rəssamlardan bir qrupu yarış keçirilən binanın girişindəki divarlardan birinə böyük bir İstanbul mənzərəsi çəkir. Rəqib komanda isə qarşı divara saf, təmiz, parlaq bir ayna tutur. İşlər tamam olub iki divar arasından pərdə götürüləndə birinci qrupun çəkdiyi əsrarəngiz mənzərə ikinci komandanın cilaladığı güzgüdə daha aydın, daha gözəl görünür. Rəsmin aynaya düşən əksində mənzərənin bütün mahiyyəti, gözəllikləri, gizli mənaları, görünməyən qatları açılır, bu səbəbdən münsiflər üstünlüyü rəsmi çəkən tərəfə yox, aynanı cilalayan tərəfə verirlər. Sıradan bir İstanbul mənzərəsi əks olunduğu güzgüdə dolğun, dərin, möcüzəli sənət əsərinə çevrilir. Necə ki, Qalib də adi bir vəkil idi, Cəlal Salikin aynasında əks olunandan sonra mürgülü potensialı açıldı, yetkin bir köşə yazarına, orijinal mütəfəkkirə çevrildi.

Bu ayna məsələsi çox yayğın sufi simvoludur, Pamuk bu pritçanı Mövlənanın “Məsnəvi”sindən əxz eləyib. Ancaq Cəlalın təbirincə söyləsək, bu hekayə də oğurluqdur, həmin pritçaya Mövlənanın əsərindən xeyli əvvəl Nizaminin “İsgəndərnamə” epopeyasında rast gəlinir. Mənzum romanın “Rum və Çin nəqqaşlarının yarışı” adlı fəslində Rum nəqqaşları gözəl bir mənzərə çəkirlər, Çin nəqqaşları isə ona güzgü tuturlar - Azərbaycan oxucusu həmin epizoda yaxşı bələddir. Bu məqamda Balzakın “Gizli şedevr” novellasından bir cümləni xatırlamasaq olmaz: “İncəsənətin vəzifəsi təbiətin üzünü çıxarmaq deyil, onun mahiyyətini ifadə eləməkdir - rəssam, sən miskin kopyaçı deyilsən, sən sənətkarsan!” Eynən Rum nəqqaşları da təbiətin surətini çıxarırlar, Çin nəqqaşları isə ona məna verirlər. Nizamidən əvvəl də bu mövzuda, buna bənzər hekayə yazan olubmu, bilmirəm...

Romanda belə bir cümlə var: “Eynən iyirmi beş il öncəki halını təqlid edən bu ev, bu otaq kimi İstanbulun bir başqa yerində eyni şəkildə döşənmiş başqa bir ev, otaq ola biləcəyi gəldi ağlına”. Fikrimcə, Pamukun əsərlərində başlıca motiv “başqası”dır, insanın can atdığı mənəvi əkiztayı, həyatını izləməyə, ömrünə dalmağa çalışdığı idealı, könül qardaşı, tale ortağı. Bu motiv “Qara kitab”dan savayı “Bəyaz qala”, “Mənim adım qırmızı”, “Qar”, “Məsumiyyət muzeyi” romanlarının da şah damarıdır. “İstanbul” avtobioqrafik romanının isə ilk fəsli, ilk abzası məhz bu, fəlsəfi təbirlə desək - idealistik konstruktun, elmin pəncərəsindən baxsaq - psixoloji kompleksin ifadəsinə həsr olunub (təhrifə yol verməmək üçün sitatı orijinaldan gətirirəm): “İstanbul’un sokakları içerisinde bir yerde, bizimkine benzeyen bir başka evde, her şeyiyle benim benzerim, ikizim, hatta tıpatıp aynım bir başka Orhan’ın yaşadığına çocukluktan başlayarak uzun yıllar aklımın bir köşesiyle inandım. Bu düşünceyi ilk nereden ve nasıl edindiğimi hatırlamıyorum. Büyük ihtimal, yanlış anlamalar, rastlantılar, oyunlar ve korkularla örülmüş uzun bir süreç sonunda fikir içime işlemişti. Bu hayal kafamda ışımaya başlayınca neler hissettiğimi açıklayabilmek için onu en belirgin şekliyle ilk hissettiğim anlardan birini anlatmalıyım...”

Belə çıxır ki, bütün yaradıcılığı boyu yazıçı ruhunu təkadamlıq qəfəsdə saxlayan tənhalığından qurtulmaq üçün o başqa Orxanın axtarışında olub, onun iziylə getməyə, ona yetişib ondakı əslinə qovuşmağa, onun ömrünə dalmağa, onun kimliyinə bürünməyə, onun həyatında əşələnməyə, ona çevrilib, ondan zühura gəlib özünə onda baxmağa, özünü ona qatıb onda tapmağa, onu tanrılaşdırmağa can atıb. Qalibin sonda gəldiyi qənaət də bu gümana düşməyimizə əsas verir: “İnsanın özü ola bilməsinin tək yolu bir başqası olmaq, başqalarının həyat hekayələrində azıb itməkdir”. Yazıçılıq da zatən elə bu deməkdir.



**F.UĞURLU**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

# Sağlam nəsil, güclü cəmiyyət!

## Uşaqlarda fiziki sağlamlıq və mənəvi dəyərlərin vəhdəti...

Müasir dövrdə uşaq və gənclərin fiziki və mənəvi inkişafı cəmiyyətin dayanıqlı gələcəyini müəyyən edən əsas prioritetlərdən biri kimi çıxış edir. Qloballaşma, rəqəmsallaşma və informasiya bolluğu fonunda formalaşan yeni nəsil həm sağlam bədənə, həm də möhkəm mənəvi-əxlaqi dəyərlərə malik olmalıdır. Çünki yalnız fiziki cəhətdən sağlam, eyni zamanda milli-mənəvi köklərinə bağlı, vətənpərvər və sosial məsuliyyət hissi yüksək olan gənclik güclü dövlət və sağlam cəmiyyətin əsas dayağıdır.

Fiziki inkişaf uşaqların sağlam həyat tərzinin formalaşmasında mühüm rol oynayır. İdman, kütləvi bədən tərbiyəsi, aktiv həyat tərzi təkcə sağlamlığı möhkəmləndirmir, eyni zamanda iradə, intizam və mübarizlik kimi keyfiyyətləri də aşılayır. Paralel olaraq mənəvi inkişaf - milli kimliyin qorunması, ailə dəyərlərinə hörmət, tarixi yaddaşın yaşadılması və ümumbəşəri dəyərlərin mənimsənilməsi gənclərin şəxsiyyət kimi formalaşmasında həlledici əhəmiyyət daşıyır.

Bu baxımdan dövlətin həyata keçirdiyi məqsədyönlü siyasət, təhsil müəssisələrinin rolu, ailə institutunun məsuliyyəti və cəmiyyətin ümumi yanaşması uşaq və gənclərin hərtərəfli inkişafının təmin olunmasında əsas amillər kimi ön plana çıxır. Sağlam düşüncəli, güclü iradəli və mənəvi baxımdan zəngin gənclik isə ölkənin gələcək inkişaf strategiyasının ən etibarlı təminatıdır. Beləliklə, gələcəyimiz olan uşaqların və gənclərin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaşlar kimi yetişməsi onların gələcəkdə cəmiyyətə inteqrasiyasına böyük təsir göstərir. Uşaq və gənclərin fiziki və mənəvi inkişafı yalnız ailənin deyil, bütövlükdə cəmiyyətin ən vacib məsuliyyətlərindən biridir.

**Sağlam psixoloji mühitin mövcud olduğu ailələrdə...**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən psixoloq Aytən Ələkbərova bildirib ki, yeniyetməlik dövrü bəzən həm fiziki dəyişikliklərlə, həm də psixoloji problemlərlə müşayiət olunur. Onun sözlərinə görə, gənclər bu mərhələdə tez-tez kimlik böhranı yaşayır: “Əgər bu



dövrdə psixoloji dəstək göstərilməsə, özünə inam azalır, sosial münasibətlərdə gərginliklər yaranır”.

Mütəxəssis vurğulayıb ki, uşaqların və gənclərin mənəvi inkişafında ailə və məktəb mühüm rol oynayır. Sağlam psixoloji mühitin mövcud olduğu ailələrdə uşaqlar düzgün dəyərlərə əsaslanaraq böyüyür. Məktəb isə təkcə bilik verilən yer deyil, həm də sosiallaşma və dəyərlərin mənimsənildiyi mühüm təsisatdır.

A.Ələkbərova rəqəmsal dünyanın yaratdığı risklərə də diqqət çəkib: “Elm adı ilə yayılan əsassız məlumatlar, saxta psixoloji metodlar və sosial şəbəkələrdə peşəkar hazırlığı olmayan şəxslərin verdiyi məsləhətlər gənclərin psixoloji sabitliyinə mənfi təsir göstərir. Buna görə də sorğulamaq və sağlam düşünmək hər bir gəncin əsas bacarıqlarından biri olmalıdır”.

**Balans düzgün qurulduqda...**

Psixoloq hesab edir ki, hər hansı fiziki və ya psixoloji narahatlıq yarandıqda onu gizlətmək əvəzinə, vaxtında ailəyə və ya mütəxəssisə müraciət etmək vacibdir. Çünki psixoloji dəstək alan gənc həm mənəvi, həm də psixoloji cəhətdən stabilləşir. “Mənəviyyat yalnız dini çərçivələrlə məhdudlaşmır. Bu, daxili harmoniya axtarışı, etik prinsiplərə bağlılıq və bütöv şəxsiyyətin formalaşması deməkdir. Sağlam bədən, psixoloji dayanıqlılıq və mənəvi dəyərlər birlikdə inkişaf etməlidir. Balans düzgün qurulduqda uşaq və gənc həm cəmiyyətə faydalı olur, həm də daxili gücünü qoruyaraq irəli gedir.

Xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanan dövlət-uşaq siyasətinin əsasında cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyənin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi dayanır. Bu gün əminliklə deyə bilərik ki, uşaqlar və gənclərimizin gələcəyi etibarlı əllərdədir. Onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün Azərbaycan dövləti bütün imkan və şəraiti yaradıb. Qarşıdakı illərdə isə gənclərin və uşaqların fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi sahəsində daha əhəmiyyətli addımlar atılacaq. Uşaq və gənclərin inkişafına qoyulan hər bir sərmayə əslində ölkənin gələcəyinə qoyulan sərmayədir. Sağlam düşünən, sağlam yaşayan və sağlam dəyərlərə sahib gənclər - güclü dövlətin ən möhkəm dayağıdır.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## ŞƏNBƏ ÜÇÜN NƏZM









### Ağrı

Bu körpənin gözlərində
Allahın adı ağlayır.
Üzündə ölən mələyin
Bir cüt qanadı ağlayır.

Ömrü çoxdan qocalıbdı,
Bir körpəlik borc alıbdı.
Bax, bir gözü Xocalıdı,
Ya Kərbəladı, ağlayır.

Xəbəri yoxdu Allahın,
Yasmağı düşübdü ahın.
Açılmayan bir sabahın
Ləzzəti, dadı ağlayır.

Ayaq üstə duran qəbir,
Dərdi gözlərinə təpir.
Əzrayılın qolunda bir
Ölüm saatı ağlayır.

Yox dərdini xəbər alan,
Tanrı yalan, bəndə yalan.
Dodağında sözsüz qalan
Bir lal bayatı ağlayır.

Dünya yoldu, o qarınca,
Heç baş qoymayıb balınca.
Gəlməyən bəxtin dalınca
Bütün həyatı ağlayır.

### UNUDULMAQ

Bu ağacın dimdiyindəki
quşun yarpaqlamağı qədərdir
yarpaqların cəh-cəhi,
bunu eşitmir ağacın
ayağına dolaşan daş...
daşların öz qulağına taxdığı pambığı
hansı pambıqçı əkmişdi bir zaman,
kimsə fərqini düşünməz
o zamanlar ayrılıq sulayırdı
pambıq tarlalarını ,
sən onda Allahın göydə
olduğuna inanırdın,
göy üzü çox uzaq olsa da,
amma indi göy üzü yaxındı sənə
Allahı görmək ümidin
quşa dönüb uçub uzaqlara
sən Kəbə yolunda dəvə
kimi gövşəyirsən
yuxarıdakı ağacın budağına
qonmuş yarpağın sümüklərini...
quşlardan gözünü çək ,
qoy gözlərinin yarpaqları kölgə salsın
bir zaman pambıq tarlasında əllərini
unudub gedən qızın
gün altında ürəyi gedən arzusuna...

### YAXIN GƏL

Ömür də gəldi,getdi,
Səndən xəbər çıxmadı.
Darıxmışam,adam yox,
Qaçıb həsrətin dadı.

Kirpiyimə söykənib,
Yarpaqladı payız? da.
Gülümsəyir göz yaşım,
İslanacaq? o qız da...

Yüyürür qabagımda,
Köynəyi qanlı ürək.
Mənim zavallı bəxtim,
Əllərini ver,gedək.

Qəlbimi unutmuşam,
Qalıb bir ay bənizdə.
Qağayılar uçuşur,
Gözümdəki dənizdə.

Günləri məktub kimi,
Hər gün oxuyur əcəl.
Pıçıldayır bu şeir:
Allah,bir az yaxın? gəl.

### EŞQ

**İtalyan sonet variantı**

Bu gün doluxsunub xatirələr də,
Həsrətdən islanıb yolların üzü.
Donub dodağında ümidin sözü,
Arzular qərq olub kədərə,dərdə.

Həyatım üşüyür sənsiz bu yerdə,
Sönüb gedişinlə bəxtimin közü.
İntizar qoxuyur sevgimin gözü,
Gecikir ömrümə doğan səhər də.

Qərib qəm küləyi ruhumda əsər,
Gəl, uzun saçını sinəm üstə sər.
Könül məhəbbətlə qoy cilvələnsin.

Sevda bağçasında güllər təzə-tər,
Eşqin əlləriylə bircəsini dər,
Vüsal qoxusuna ürək bələnsin.

### ÇÖL ESKİZLƏRİ

Bu çölün düzündə
quşların səsini
kətana çəkə bilmədim...

Küləyin saxta təbəssümündən
barmaqlarım üşüdü...
Ovcumdakı su kimi
üstümə dağıldı sükut...
Gözlərim rəngləri
naxış-naxış dinləməkdə...

Rənglər sərçə balası kimi
dənlədi baxışlarımı...
Daşların oxuduğu
müğamın üzündəki
şeh damcıları kətanı islatdı...
Lənət şeytana,
həqiqət ağlamağa vaxt tapdı,
bu çölün düzündə...

Rəssam olmadan
ölmək
böyük dərddir, cənab Əzrayıl...
Nə yaxsı
rənglərin edam oldugu yerdə
hələ də papağını
çıxarıb keçir AZADLIQ sözü...

### PƏNCƏRƏ

Şeir gözlüm,misra-misra susursan,
Tək sən idin məni xəbər alanım.
Kimə lazım sənsiz qalan bu ömür,
Şeir-şeir qoy başına dolanım.

Mənim səni unutdugum zamanın,
Üzündəki qızartını oxu sən.
Bu həsrətin əllərinə yaxşı bax,
Orda eşqin varı mənəm,yoxu sən.

Bir mələksən,ömrün şeir qoxulu,
Səni sevən bir dəlini bağışla.
Payız gəlib ,doluxsunub ümidim,
Adın üstə yağır soyuq yağışlar...

Göz yaşından köynək geyən sevginin,
Ürəyinə kim dəyibdi,bilirəm.
Mən Allahın imzasını götürüb,
Öpə-öpə yazısını silirəm.

Məhəbbəti ucuzlaşan dünyada,
Duz çevirdim mən adının başına.
Gözlərimin pənçərəsi üşüyür,
Od vur səbrin qurusuna,yaşına.

Keçib getmir gözlərimin buludu,
Göz yaşılarım dərdim üstə çətirdi.
Bu ömürdən çoxdan çıxıb gedərdim,
Yaşamağım təkcə sənə xətirdi.

### TƏBƏSSÜM

Sən də çıxıb gedərsən,
Günlərin bir günündə.
Arxanca asta-asta ,
Dadı qaçar günün də...

Qanayan yarasına
Qəlbim adını bağlar.
Ayrılığın çiyninə
Başını qoyub aglar.

Ümidin ayaqları
Yollarda don vuracaq.
Həsrət göz yaşlarımla
Saatını quracaq.

Alnımın qırışında
Başlayar qar çovğunu.
Varaqlar misra-misra
Qaçıracaq yuxunu...

Gör neçə çiklənib,
Səsimin təbəssümü.
Belə başlayır, gülüm,
Ömrün həsrət mövsümü...



## AFFA-nın liqalarında yenilik

2025-2026-cı illər mövsümü başlamazdan öncə müxtəlif tarixlərdə AFFA-nın inzibati binasında həm Misli Premyer Liqasında iştirak edən klubların, həm akademiyaların, həm digər fərdi komandaların, həm də mərkəzləşdirilmiş regionlarda iştirak edən komandaların nümayəndələrinin onlayn iştirakı ilə görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, həmin görüşlərdə bir sıra məsələlər müzakirə edilib, təkliflər dəyərləndirilib və uyğun olan bəzi yeni qərarlar qəbul edilib.

Bildiyiniz kimi, AFFA U-8, AFFA U-9, AFFA U-10, AFFA U-11 və AFFA U-12 liqalarında nəticələr qeydə alınmır, turnir cədvəli tətbiq edilmir. Həmin yaş qruplarının oyunlarında tez-tez böyükhesablı nəticələrlə rastlaşırıq. Oyunçuların futbola olan həvəsinin azalmaması və matç balansının təmin edilməsi məqsədilə AFFA rəhbərliyi bu mövzu ətrafında geniş müzakirələr aparıb və bu nüansı aradan qaldıra biləcək qərar qəbul edib.

Yeni qərara əsasən, hər hansı komanda oyun ərzində 3 top fərqi ilə geridə olarsa, bu zaman əsas heyətə 1 nəfər oyunçusunu əlavə edə bilər. Hesab arasındakı fərq 6 qol olarsa, məğlub durumda olan komanda əsas heyətə daha 1 oyunçu əlavə edə bilər.

Hesab fərqi 4 qola enən zaman meydanda olan əlavə 2 oyunçudan 1-i meydanı tərk etməlidir.

Yekun olaraq, 3 qol fərqi olanda əlavə 1 oyunçu, 6 qol fərqi yaranan zaman əlavə daha bir oyunçu meydana daxil ola bilər.

Qol fərqi 4-ə və 2-yə enərsə, meydana daxil olan oyunçular müvafiq qaydada meydanı tərk etməlidirlər.

Hesab fərqinə görə meydana əlavə olaraq daxil ola biləcək oyunçuların sayı maksimum 2 nəfər olmalıdır.

## AFFA rəsmisi: Rəqabət son turlara qədər davam edəcək



Birinci dövrə kifayət qədər maraqlı və gərgin keçdi. İnanırıq ki, ikinci hissədə də bunun davamının şahidi olacağıq. Bu sözləri AZƏRTAC-a açıqlamasında AFFA Məşqçilər Komitəsinin sədri Vaqif Sadıqov bu gün Misli Premyer Liqasında start götürəcək ikinci dövrənin ilk tur oyunları barədə danışarkən deyib.

Mütəxəssis çempionluq mübarizəsinə toxunaraq qeyd edib ki, bu mövsüm rəqabət son turlara qədər davam edəcək: “Lider “Sabah” təsadüfən qış çempionu olmayıb. Bu komanda öz gücünü göstərməyi bacarıb və son illərdə görülən işlərin bəhrəsini artıq görür. Hədəfləri hər zaman böyükdür, iddiası isə hər kəsə bəllidir. Mən hesab edirəm ki, çempionluq uğrunda mübarizə aparacaq komandaları sadalayarkən “Qarabağ”dan sonra “Sabah”ın adını çəkmək lazımdır. Elə buna görə də çempionatın ikinci hissəsində rəqabət dolu oyunların şahidi olacağıq. Əvvəlki mövsümlərdə biz adətən “Qarabağ”ı bir neçə tur öncə çempion kimi görməyə öyrəşmişdik. Ancaq düşünürəm ki, bu dəfə fərqli mənzərə ilə qarşılaşacağıq. Çempionluq uğrunda mübarizə son turlara qədər davam edəcək və komandalar arasında ciddi rəqabət olacaq. Yəni, komandalar mümkün qədər müsbət nəticələr əldə etməyə çalışacaqlar. Bizi çempionatın ikinci dövrəsində olduqca maraqlı oyunlar gözləyir və ilk turlar artıq bunun bariz nümunəsi olacaq. Hazırlıq dövründən sonra demək olar ki, bütün komandaların şansları bərabərləşib. Arzum odur ki, ədalətli oyunda güclü olan qalib gəlsin. Ən əsası isə bu matçlardan ümumilikdə Azərbaycan futbolu faydalansın”.

## Almaniyalı hakim Berti Foqtsun vaxtında Azərbaycandan təklif alıb

Berti Foqts Azərbaycan millisində işlədiyi dövrdə məni hakimlərin inkişafı prosesinə cəlb etməyə çalışmışdı.

Bu barədə AZƏRTAC-a açıqlamasında almaniyalı keçmiş hakim Bernd Heynemann deyib. O, həmyerlisinin istefasından sonra bu məsələnin gündəmdən düşdüyünü bildirib: “Mən 2019-cu ildə AFFA-ya müraciət etmək imkanı əldə etdim. Lakin bu da nəticəsiz qaldı”.

72 yaşlı B.Heynemann Azərbaycan millisinin sabiq üzvü Dmitri Nazarovu tanıdığını söyləyib:” O, II Bundesliqada çıxış edirdi. Oyunlarını izləmişəm”.

Qeyd edək ki, Bernd Heynemann Almaniyada bir neçə final oyunlarını idarə edib.



## Koul Palmer tezliklə “Çelsi”dən ayrıla bilər



“Çelsi”nin futbolçusu Koul Palmer tezliklə London klubundan ayrıla bilər. AZƏRTAC xəbər verir ki, buna səbəb yarımmüdafiəçinin komandada xoşbəxt olmamasıdır.İngiltərə millisinin üzvü gələcək transfer təkliflərini dəyərləndirəcək. 23 yaşlı oyunçunun adı “Mançester Yunayted”lə hallanır.

Koul Palmer 2023-cü ildə 40 milyon funt sterlinqə “Mançester Siti”dən “Çelsi”yə keçib.

## NBA: Türkiyəli basketbolçunun komandası səfərdə uduzub



ABŞ-ın Milli Basketbol Assosiasiyasında (NBA) daha səkkiz qarşılaşma keçirilib.

AZƏRTAC xəbər verir ki, türkiyəli basketbolçu Alpərən Şəngünün çıxış etdiyi “Hyuston Rokets” səfərdə “Filadelfiya” ilə qarşılaşıb.

Görüş meydan sahiblərinin 128:122 hesablı qələbəsi ilə başa çatıb.

Hazırda “Hyuston Rokets” Qərb Konfransının turnir cədvəlində 4-cü, “Filadelfiya” isə Şərqdə 5-cidir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4602**
**Sifariş: 100**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova